RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 275 (9442) 16 DEKABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# "Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır"

## COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib



Dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfransı Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.

Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi.

Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək, beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil.

→ 2

# İLHAM ƏLİYEV seçkilərə YAP-ın namizədi kimi qatılır



Dekabrın 15-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin genişləndirilmiş iclası keçirilib.

İclasda əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Dövlət himni səsləndirilib.

İclası giriş sözü ilə açan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2023-cü ilin Azərbaycan xalqının və dövlətinin tarixinə çox əlamətdar bir il kimi düşdüyünü bildirib. Onun sözlərinə görə, bu il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilib. Eyni zamanda dövlət başçısı İlham Əliyevin sərəncamı ilə 2024-cü il fevralın 7-nə Azərbaycan Respublikası Prezidenti seçkiləri təyin olunub.

→ 4-5

# Təhsil ocaqlarımız yüksəliş mərhələlərini məhz Heydər Əliyevin rəhbərliyi dövründə yaşamışdır

## Azərbaycan müəllimlərinin XVI qurultayının iştirakçılarına

Hörmətli qurultay iştirakçıları!

Əziz müəllimlər və təhsil işçiləri!

Azərbaycan müəllimlərinin XVI qurultayının öz işinə başlaması münasibətilə sizi ürəkdən salamlayır, ölkəmizin təhsil işçilərinə ən xoş arzularımı yetirir, hamınıza cansağlığı və şərəfli fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

Bu qurultay "Heydər Əliyev İli" çərçivəsində keçirilməsi və Ümummilli Liderin 100 illik yubileyinə həsr olunması ilə əlamətdardır. Ulu Öndər genişmiqyaslı fəaliyyətində təhsilin dinamik inkişafına həmişə həssaslıqla yanaşmış və misilsiz qayğı göstərmişdir. Təhsil ocaqlarımız yüksəliş mərhələlərini məhz Heydər Əliyevin rəhbərliyi dövründə yaşamışdır. Milli təhsildə zamanın çağırışlarına müvafiq, gələcək perspektivlər yönündə atılan uğurlu addımlar həmin dövrdə ardıcıl surətdə gerçəkləşdirilmiş dövlət siyasətinin nəticəsidir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrasına başlanılmasından bəri keçən müddətdə təhsilin bütün pillə və səviyyələrində innovativ təşəbbüslərin tətbiqi genişləndirilmişdir. Təhsil sistemində idarəetmənin qabaqcıl dünya təcrübəsinə uyğun təkmilləşdirilməsinə, universitetlərimizin beynəlxalq reytinq cədvəllərində irəliləməsinə, təhsilin elmlə inteqrasiyasının dərinləşdirilməsinə daim xüsusi diqqət yetirilir. Kadr ehtiyatının səriştəlilik baxımından gücləndirilməsi, müəllim peşəsinin ictimai nüfuzunun möhkəmləndirilməsi və müəllim fəaliyyətinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

Azərbaycan təhsil sisteminin mütərəqqi beynəlxalq meyarlara əsaslanması rəqabətqabiliyyətli insan kapitalının hazırlanması prosesinə töhfəsini verməkdədir. İstedadlı gənclərimizin xarici ölkələrin tanınmış ali təhsil müəssisələrində təhsil almalarına dövlətimiz hər bir lazımi dəstəyi təmin edir.

Vətən müharibəsindəki parlaq qələbəmizdən dərhal sonra azad olunmuş ərazilərimizdə ən müasir standartlarla tikilən məktəblər artıq fəaliyyətdədir. Bu məktəblərdə gələcəyimizin layiqli vətəndaşları oxuyurlar. Yeni yaradılan Qarabağ Universiteti isə, şübhəsiz, regionda tarixən mövcud olmuş təhsil mühitini çox yaxın vaxtda canlandıracaqdır.

Ötən dövrün dolğun təhlilini apararaq təhsil sahəsində strateji məqsədlərə nail olmaq və Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulmuş hədəflərə çatmaq əzmi ilə ali məclisinizin ətraflı müzakirələr şəraitində mühüm qərarlar qəbul edəcəyinə və ölkənin intellektual potensialını təhsildə dayanıqlı inkişaf naminə sıx birləşdirəcəyinə əminəm.

İnanıram ki, xalqımıza Zəfər sevinci yaşadan igid və qəhrəman övladlarımızın formalaşması naminə müstəsna əmək sərf etmiş fədakar müəllimlərimiz gənc nəslə bundan sonra da mükəmməl bilik verməklə yanaşı, onların milli-mənəvi dəyərlərə bağlılıq və azərbaycançılıq məfkurəsi ruhunda böyümələri üçün var qüvvə ilə çalışacaqlar.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2023-cü il*

# Dostluq münasibətləri əməkdaşlığın möhkəmlənməsinə xidmət edir

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin investisiya nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28-in Dubayda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Məhəmməd Həssən Əl Suveydi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı bu yaxınlarda Birləşmiş Ərəb Əmirliklərinə səfərini və səfər çərçivəsində bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşünü məmnunluqla xatırladı.

→ 2

# Seçim dəyişmir

## Xalq şanlı zəfərin memarına alternativ görmür

Fevralın 7-nə təyin edilmiş prezident seçkiləri müasir Azərbaycanın tarixində əvvəlki seçkilərdən mahiyyətinə və məzmununa görə çox fərqli olacaq. Bu hadisə müstəqil və suveren dövlətçilik prinsiplərinin məntiqinə və fəlsəfəsinə tam uyğundur. Təbii ki, əvvəlki hər bir seçkinin müstəqillik tariximizdə öz önəmi var. Hər seçki ilə, xüsusilə son 25-30 ildə dövlətimizin inkişafında yeni mərhələnin və səhifənin açıldığı mübahisəsizdir. Bu seçkilər isə Azərbaycanın tam yeni bir sima ilə qatılacağı və özünü dünyaya yeni imiclə nümayiş etdirəcəyi hadisə olacaq.

Bütövlükdə seçki dövlət hakimiyyəti orqanlarının Azərbaycan vətəndaşları tərəfindən formalaşdırılması üçün yeganə legitim vasitə olmaqla yanaşı, həm də yeni başlanğıclara körpü salan stimulverici amildir. Prezident seçkiləri həm də milli iradənin təntənəsi, Azərbaycan xalqının vahid mövqeyinin və gələcəyə baxış bucağının ifadəsi üçün vasitədir. Növbəti prezident seçkisinin çağdaş Azərbaycanın tarixində mühüm rol oynayacağına, qarşıda dayanan milli hədəflərimizə çatmaq üçün yeni bir başlanğıca çevriləcəyinə şübhə yoxdur.

→ 6

# YAP-ın namizədi xalqın namizədidir

Böyük qürur hissi ilə qeyd etmək istərdim ki, sıralarında təmsil olunduğum YAP-ın İdarə Heyətinin respublikamızın siyasi həyatında böyük hadisə kimi dəyərləndirilən genişləndirilmiş iclasında Prezident İlham Əliyevin namizədliyinin irəli sürülməsi xalqımızın iradəsini ifadə edən tarixi qərardır. Xalqımızın bu siyasi qərar ətrafında səfərbər olmasının təməlində ötən 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın keçdiyi inkişaf yolu, qazandığımız möhtəşəm nailiyyətlər və Heydər Əliyev siyasi kursuna olan böyük inam dayanır.

→ 7

# “Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır”

## COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib



*Əvvəli 1-ci səh.*

Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar.

Bir də bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir.

İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik. Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik. Bizim vaxtımız o qədər də çox deyil, 11 aydan az vaxtımız var. Ona görə mən hesab etdim ki, birinci müşavirəni öz sədrliyimlə keçirim, bütün lazımi tapşırıqları verim. Bu tapşırıqların yerinə yetirilməsi barədə müntəzəm olaraq mənə məlumat veriləcək.

Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

# Dostluq münasibətləri əməkdaşlığın möhkəmlənməsinə xidmət edir

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin investisiya nazirini qəbul edib



*Əvvəli 1-ci səh.*

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli dostluq münasibətlərinin bir çox sahədə uğurla inkişaf etdiyi bildirildi, müxtəlif səviyyələrdə təmasların əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət etdiyi qeyd olundu.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il Azərbaycanda keçirilməsi barədə qərar beynəlxalq aləmdə ölkəmizə göstərilən böyük etimadın və hörmətin nümunəsi kimi dəyərləndirildi.

Söhbət zamanı bu gün imzalanacaq sənədlərin önəmi qeyd edilərək bunun iqtisadi sahədə əməkdaşlığın və ümumilikdə əlaqələrimizin uğurlu inkişafının yaxşı göstəricisi olduğu bildirildi. Sonra sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan İnvestisiya Holdinqi və Əbu-Dabi İnkişaf Holdinq Şirkəti arasında Birgə sərmayə çərçivə razılaşması imzalandı. Razılaşmanı Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydi imzaladılar.



Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında data mərkəzləri layihələrində investisiya əməkdaşlığı haqqında Anlaşma Memorandumu imzalandı. Memorandumu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydi imzaladılar.

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin aşağıdakı əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələr verilsin:

**"general-leytenant" ali hərbi rütbəsi**

general-mayor Etibar Rəsul oğlu İsmayılova

**"general-mayor" ali hərbi rütbəsi**

polkovnik Şahin Əyyub oğlu Mirzəyevə

**"daxili xidmət general-mayoru" ali xüsusi rütbəsi**

daxili xidmət polkovniki Aqşin Böyükağa oğlu Kazımova

daxili xidmət polkovniki Asif Eltufat oğlu Məmmədliyə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2023-cü il*

# Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 600,0 (altı yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2023-cü il*

# Ceyhun Bayramov QDİƏT-in iclasında bölgədəki mövcud vəziyyət barədə məlumat verib



Dekabrın 15-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov videokonfrans formatında baş tutmuş Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının 47-ci iclasında çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, 2023-cü il ərzində QDİƏT-ə sədrlik edən qardaş Türkiyə Respublikasına uğurlu və dinamik sədrlik münasibətilə təbrikini çatdıran nazir Ceyhun Bayramov, bu istiqamətdə QDİƏT-i praktiki əməkdaşlıq və konkret layihələrə fokuslanan təşkilata çevirməklə bağlı Türkiyə tərəfindən göstərilən səylərin təqdirəlayiq olduğunu ifadə edib.

Çıxış zamanı QDİƏT-in növbəti illər ərzində prioritetlərini müəyyən edəcək İqtisadi Gündəliyinin yekunlaşdırılmasının, xüsusilə nəqliyyat və bağlantıların genişləndirilməsi istiqamətində fəaliyyətin əhəmiyyəti vurğulanıb.

Ölkəmizin bölgədə nəqliyyat və kommunikasiyaların inkişafı sahəsində əməli addımlar atdığını, bu istiqamətdə görülən işlərin öz növbəsində Orta dəhlizin imkanlarının genişləndirilməsinə də töhfə verəcəyi vurğulanıb. Bu sahədə, tranzit axınlarının rəqəmsallaşması, habelə "Rəqəmsal İpək Yolu" layihəsinin həyata keçirilməsi istiqamətində Mərkəzi Asiya və Qara dəniz regionlarından olan tərəfdaşlarla yaxından fəaliyyət göstərdiyimiz diqqətə çatdırılıb.

Enerji təhlükəsizliyi sahəsində Cənub Qaz Dəhlizi layihəsinin genişlənməsinin əhəmiyyətindən bəhs edən nazir Ceyhun Bayramov, bu istiqamətdə "yaşıl enerji" sahəsinin inkişafının prioritetimiz olduğunu bildirib.

Növbəti il ərzində ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası - COP29-a evsahibliyi edəcəyini qeyd edən nazir Ceyhun Bayramov sözügedən tədbirin qlobal iqlim dəyişikliyinin qarşısının alınmasına töhfə olması üçün ölkəmizin bütün səylərini səfərbər edəcəyini söyləyib.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə iştirakçıları məlumatlandıran nazir Ceyhun Bayramov, hazırda bölgədə sülh quruculuğu üçün münbit şəraitin, habelə təşkilat çərçivəsində də qarşılıqlı faydalı əməkdaşlıq üçün imkanların yarandığını qeyd edib. Ölkəmizin Ermənistanla normallaşma və sülh prosesini irəlilətməkdə qərarlı olduğu bir daha vurğulanıb.

# Xarici işlər naziri ABŞ-nin yeni səfiri ilə regiondakı mövcud vəziyyəti müzakirə edib

Dekabrın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ-nin ölkəmizə yeni təyin olunmuş səfiri Mark Libbi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı səfir Mark Libbi etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, regionda mövcud vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin perspektivləri müzakirə olunub.



Azərbaycanla ABŞ arasında bir sıra istiqamətlərdə tarixi əməkdaşlıq münasibətlərinin əhəmiyyəti və qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişafının vacibliyi qeyd olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülh və sabitliyin bərqərar edilməsində maraqlı tərəf olduğunu vurğulayıb.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 50 avtomobil verilib

Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan şəxslərə daha 50 minik avtomobili verilib.

AZƏRTAC xəbər verir ki, avtomobillərin sənədlərini əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov və "Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin sədri Mehdi Mehdiyev təqdim ediblər.

Mərasimdə çıxış edən A.Əliyev bildirib ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra da şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlərlə, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillərlə təminatı tədbirləri davam etdirilir. Dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı nazirlik tərəfindən icra olunan sosial dəstək paketi çərçivəsində mənzil və fərdi evlə təminat proqramı 5 dəfə genişləndirilib.

Postmüharibə dövründə bu kateqoriyadan olan şəxslərə 5 min 600, ümumilikdə ötən dövrdə 14 min 400 mənzil və fərdi ev təqdim olunub. Dövlət başçısının tapşırığı ilə həmin kateqoriyadan olan vətəndaşlarımıza 2023-cü ildə ən azı 1500 mənzil və fərdi evin verilməsi işləri davam etdirilir. Ölkə Prezidentinin Sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunurlar.

Diqqətə çatdırılıb ki, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatı tədbirləri çərçivəsində 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz avtomobillə təmin edilirlər.

Bu gün təqdim edilən 50 avtomobil də daxil olmaqla postmüharibə dövründə 424, ümumilikdə ötən dövrdə 7 min 600 avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslər onlara göstərilən hərtərəfli qayğıya, yeni avtomobillərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığının Baş naziri ilə görüşüb





Dekabrın 15-də Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığının Baş naziri Aziz Axanuş ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycanla Mərakeş arasında yaxşı ikitərəfli münasibətlərin mövcud olduğunu deyən Baş nazir, xüsusən ölkələrimiz üçün mühüm məsələlərdə qarşılıqlı dəstəyin mövcud olmasını təqdir edib. O qeyd edib ki, hazırda Mərakeş və Azərbaycan arasında münasibətlərin daha da inkişafına dair müzakirələr aparılır və Mərakeş bu müzakirələri davam etdirmək əzmindədir. Baş nazir Milli Məclis Sədrinin bu səfərinin ikitərəfli əlaqələrin inkişafında əhəmiyyətini qeyd edərək, bunun Azərbaycan və Mərakeş arasında münasibətlərin səviyyəsinin bir göstəricisi olduğunu bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova iki ölkə arasında münasibətlərin inkişafında mühüm sahələrdən biri kimi parlamentlərimizin rolunu qeyd edib. O, Mərakeş Krallığına bu ilk rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlər barədə Baş nazirə məlumat verib. Görüşlərdə ölkələrimiz və parlamentlərimiz arasında mühüm əhəmiyyət kəsb edən bir sıra məsələlərin müzakirə olunduğu diqqətə çatdırılıb.

Söhbət zamanı bildirilib ki, ötən il Azərbaycan və Mərakeş arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü tamam olub. Bu dövr ərzində dövlətlərarası münasibətlər inkişaf edib, qarşılıqlı faydalı əməkdaşlıq genişlənib. Milli Məclisin Sədri yüksəksəviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsinin ikitərəfli əlaqələrin inkişafında mühüm rolunu qeyd edib.

Görüşdə həmçinin diqqətə çatdırılıb ki, Azərbaycan və Mərakeş beynəlxalq təşkilatlarda da uğurla əməkdaşlıq edir və həmrəylik nümayiş etdirirlər. Ölkələrimiz ərazi bütövlüyü və suverenlik məsələlərində bir-birini dəstəkləyirlər. O cümlədən Mərakeşin Qoşulmama Hərəkatında və Hərəkatın Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Parlament Şəbəkəsinin işində fəal iştirakı qeyd edilib.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da inkişafının əhəmiyyəti ilə bağlı fikirlər səsləndirilib. Spiker Sahibə Qafarova qeyd edib ki, ölkələrimizin mövcud potensialından istifadə etmək, müxtəlif sahələrdə əməkdaşlığı şaxələndirmək və daha da artırmaq üçün imkanlar var. O, bu mənada Hökumətlərarası Birgə Komissiyanın əhəmiyyətli platforma olduğunu vurğulayaraq, komissiyanın bu ilin noyabrında keçirilmiş 2-ci iclasında qəbul edilmiş qərarların icrasının gələcək fəaliyyətlər üçün mühüm əhəmiyyətini diqqətə çatdırıb. Söhbət zamanı qeyd edilib ki, ölkələrimiz arasında əlaqələrin daha da inkişafı baxımından müqavilə-hüquq bazasının yaradılmasında parlamentlər də mühüm rol oynayır.

Milli Məclisin Sədri Baş nazirə, həmçinin Azərbaycanın 2020-ci ildə öz torpaqlarını işğaldan azad etməsi, postmünaqişə dövründə regionda mövcud olan vəziyyət, Azərbaycanın sülh təşəbbüsləri haqqında da məlumat verib. O, regionda yaranmış sülh perspektivləri barədə də fikirlərini bildirib.

Görüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən yenidənqurma işləri çərçivəsində ölkəmizlə Mərakeş arasında əməkdaşlığın mümkünlüyü də müzakirə olunub. Spiker Sahibə Qafarova deyib ki, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas məqsədi bu ərazilərdə həyatın yenidən bərpa olunmasıdır. Hazırda "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları əsasında bu ərazilər bərpa edilir, həmin ərazilər "Yaşıl zona" elan olunub. Milli Məclisin Sədri Ermənistan tərəfindən basdırılmış minaların görülən bərpa və yenidənqurma işlərinə ən böyük maneə olduğunu söyləyib.

Mərakeş Krallığının Baş naziri Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi münasibətilə təbriklərini çatdıraraq, Azərbaycanın işğaldan azad edilmiş ərazilərini bərpa etməsini mühüm addım kimi qiymətləndirib.

Görüşdə həmçinin Azərbaycanla Mərakeş arasında nəqliyyat, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişafı yolları haqqında müzakirələr aparılıb, iqtisadi əlaqələrin intensivləşməsinin zəruriliyi qeyd olunub.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığının Xarici işlər, Afrika ilə əməkdaşlıq və xaricdəki mərakeşlilərlə iş üzrə naziri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 15-də Mərakeş Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin Xarici işlər, Afrika ilə əməkdaşlıq və xaricdəki mərakeşlilərlə iş üzrə naziri Naser Burita ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nazir Naser Burita Azərbaycanın Mərakeş üçün qardaş ölkə olduğunu söyləyərək, ölkələrimiz arasında əlaqələrin dinamik inkişaf etdiyini bildirib. Onun sözlərinə görə, həm Mərakeş, həm də Azərbaycan öz regionlarının mühüm aktorlarıdır və Mərakeş Azərbaycanı regionda mühüm tərəfdaş kimi görür.

Görüşdə ölkələrimizin ərazi bütövlüyü və suverenlik məsələlərində hər zaman bir-birinə qarşılıqlı dəstək verdiyi qeyd edilib. Nazir Naser Burita Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi münasibətilə təbriklərini çatdırıb.

Milli Məclisin Sədri Sahibə Qafarova xalqlarımızın oxşar dəyərləri bölüşdüyünü qeyd edərək, Azərbaycan və Mərakeşin qardaş ölkələr olması fikrini təsdiqləyib və bu qardaşlığın hərtərəfli tərəfdaşlığa doğru inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Nazir Naser Burita deyib ki, gələn il Ulu Öndər Heydər Əliyevin Mərakeş Krallığına səfəri və Mərakeş Kralı mərhum II Həsənlə görüşünün 30-cu ildönümü tamam olur. O, bu əlamətdar tarixi hadisə ilə əlaqədar Azərbaycan-Mərakeş əlaqələrini gücləndirmək, münasibətlərimizi qardaşlıqdan tərəfdaşlığa çevirmək niyyətini ifadə edib.

Görüşdə nazir Naser Burita Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini qeyd edib. Spiker Sahibə Qafarova isə ölkəmizin Hərəkatın Sədri kimi qlobal təşəbbüsləri haqqında məlumat verib. O, Mərakeş parlamentinin Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində fəal iştirakını vurğulayıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan parlamentinin rəhbəri kimi Mərakeş Krallığına bu ilk rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlər və apardığı müzakirələr barədə məlumat verib. Ali qanunvericilik orqanlarımız arasında əlaqələrin daha da inkişafı, parlamentlərimizin komitələri, dostluq qrupları arasında əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi bildirilib.

Ölkələrimiz arasında münasibətlərin hazırkı səviyyəsi barədə fikirlərini bölüşən spiker Sahibə Qafarova deyib ki, iqtisadi əlaqələr ölkələr arasında ikitərəfli münasibətlərin əsas komponentlərindən biridir. Bu mənada, Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyətinə toxunulub.

Milli Məclisin Sədri ikitərəfli əlaqələrdə müqavilə-hüquq bazasının genişləndirilməsinin önəmini qeyd edib. O, ölkələrimiz arasında bir sıra sahələrdə əlaqələrin inkişafı ilə bağlı fikirlərini bölüşüb.

Söhbət zamanı insanlar arasında təmasların sıxlaşdırılması, turizm sahəsində və işgüzar dairələr arasında əməkdaşlığın genişləndirilməsi yolları müzakirə olunub. Həmçinin enerji sahəsində əməkdaşlığın gələcək perspektivləri haqqında fikir mübadiləsi aparılıb və nəqliyyat sahəsində əməkdaşlığın inkişafı məsələlərinə diqqət çəkilib.

Görüşdə Milli Məclisin Sədri postmünaqişə dövründə regionda mövcud olan vəziyyət, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən yenidənqurma və bərpa işləri, həmçinin ölkəmizin sülh təşəbbüsləri, son dövrlərdə Azərbaycan və Ermənistan arasında həyata keçirilən etimad tədbirləri barədə məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova TBMM-in sədri Numan Kurtulmuşa başsağlığı verib

Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşa başsağlığı məktubu ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri TBMM-in deputatı Hasan Bitməzin vəfatı münasibətilə öz adından və Azərbaycan Respublikası Milli Məclisinin üzvləri adından başsağlığı verib, mərhumun ailə üzvlərinə və yaxınlarına səbir diləyib.

***"Azərbaycan"***

# Azərbaycan müəllimlərinin XVI qurultayı keçirilir

## Qurultaya 1600-dən çox nümayəndə qatılıb




Dekabrın 15-də Bakı Konqres Mərkəzində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən Azərbaycan müəllimlərinin XVI qurultayı işə başlayıb.

Qurultaydan əvvəl Fəxri xiyaban ziyarət edilərək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın əziz xatirəsi ehtiramla anılıb, məzarları önünə əklil və gül dəstələri qoyulub.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə güllər düzülüb.

AZƏRTAC xəbər verir ki, qurultaya ümumi, orta ixtisas, peşə, ali təhsil və elmi müəssisələrdən 1600-dən çox nümayəndə qatılıb.

Qurultay Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət gimnaziyasının uşaq xorunun ifasında Dövlət himninin səsləndirilməsi ilə başlanıb. Sonra vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın və ötən qurultaydan keçən müddət ərzində vəfat etmiş təhsil işçilərinin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra 44 günlük Vətən müharibəsində şəhid olmuş təhsil işçilərindən bəhs edən və "Heydər Əliyev milli təhsil strategiyasının banisidir" adlı videoçarxlar nümayiş olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına məktubunu Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev hesabat məruzəsi ilə çıxış edib. Nazir son illərdə təhsil sahəsində həyata keçirilən islahat və layihələrdən danışıb. Azərbaycan təhsilinin inkişaf strategiyasının banisi Ümummilli Lider Heydər Əliyevin bu sahədəki uğurlu siyasətini vurğulayan nazir Prezident İlham Əliyevin təhsilə olan diqqət və qayğısını xüsusilə qeyd edib.

Nazir çıxışında "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə təhsil infrastrukturu, fəaliyyətə başlayan tədris müəssisələri, eləcə də planlaşdırılan digər layihələrdən danışıb.

Emin Əmrullayev pandemiya dövründə təhsil, məktəbəqədər təhsildə əhatəliliyin artırılması, ümumi təhsildə səriştə əsaslı məzmunun tətbiqi, STEAM sinif və mərkəzlərinin yaradılması, həmçinin şagirdlərin beynəlxalq fənn olimpiadalarında uğurlarından danışıb. Nazir inkişaf etmiş ölkələrin təcrübəsindən nümunələr gətirərək, müəllimlərin əməkhaqqına dair yeni yanaşmaları vurğulayıb və aylıq vəzifə maaşlarının artan dinamikasını təqdim edib.

Təhsil tələbə kreditlərinin tələbələr üçün ali təhsilə əlçatanlığın təmin edilməsindəki rolundan danışan Emin Əmrullayev 2022-2023-cü tədris ili üzrə 20 min, 2023-2024-cü tədris ili üzrə isə 26 min nəfərin təhsil tələbə kreditindən faydalandığını vurğulayıb.

Azərbaycan müəllimlərinin XVI qurultayının "Heydər Əliyev İli"nə təsadüf etdiyini xatırladan Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri Bəxtiyar Əliyev bu baxımdan tədbirin əlamətdar olduğunu vurğulayıb. Bugünkü tədbiri Azərbaycan müəllimlərinin zəfər qurultayı kimi dəyərləndirən Bəxtiyar Əliyev təhsil sahəsində aparılan sistemli islahatların əhəmiyyətindən də danışıb. Son 20 ildə təhsil sahəsinə ayrılan xərclərin artdığını diqqətə çatdıran komitə sədri təhsil sahəsində qanunvericilik bazasının möhkəmləndiyini qeyd edib.

Qurultayda çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli vurğulayıb ki, son 5 ilin ən mötəbər hadisəsi Azərbaycanın suverenliyinin tam bərpa olunmasıdır. Bu gün qurultayda işğaldan azad edilmiş ərazilərimizdə çalışan müəllimlərin də iştirak etdiyini xatırladan İsa Həbibbəyli bunu digər qurultaylardan əsas fərq kimi vurğulayıb.

Akademik yeni bilik və bacarıqlara malik nəsillərin yetişdirilməsinin müstəqil Azərbaycan elminin ən böyük nailiyyətləri olduğunu bildirib.

Sonra Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə 2023-cü ildə həyata keçirilən imtahanların statistikasını diqqətə çatdırıb. O bildirib ki, təhsil sistemində həyata keçirilən bütün islahatların nəticəsi müəllimlərin bilik və bacarığı, səriştə və şəxsiyyətindən asılıdır.

Məleykə Abbaszadə çıxışının sonunda təlim metodlarının təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinin önəmini diqqətə çatdırıb.

ADA Universitetinin rektoru Hafiz Paşayev çıxışında sürətlə dəyişən dünyada tədris proqramlarının daim yenilənməli və təhsildə yeni interaktiv metodların istifadəsinin genişləndirilməli olduğunu qeyd edib. Hafiz Paşayev bildirib ki, gənclərə təhsil istiqaməti və təhsil ocağı üçün çoxlu seçimlər yaradılmalıdır. Həqiqət budur ki, öyrənmə məsuliyyətinin əsas payı təhsilalanların üzərinə düşür və müəllim onlara bu məsuliyyətin dərk olunmasında kömək edə bilər.

Qurultayda çıxış edən Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova, Bərdə şəhəri 7 nömrəli tam orta məktəbin tarix müəllimi, Vətən müharibəsi iştirakçısı Ceyhun Əsədov təhsilə və müəllimlərə göstərilən dövlət qayğısından, ölkəmizdə müəllim nüfuzunun, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlardan danışıb, müəllimlərin sertifikatlaşdırılması və diferensial əməkhaqqı sisteminin tətbiqinin onlar arasında sağlam rəqabəti və motivasiyanı gücləndirdiyini, eləcə də Azərbaycan müəllimlərinin üzərinə düşən missiyanı hər zaman şərəflə yerinə yetirdiklərini vurğulayıblar.

Plenar iclasdan sonra qurultay öz işini "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan təhsili", "İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış", "Azərbaycan dili yeni çağırışlar müstəvisində", "Rəqəmsallaşma, süni intellekt və təhsilin transformasiyası", "Ümumi təhsilin məzmununa müasir yanaşmalar", "Ümumi təhsilin idarə olunmasına müasir yanaşmalar", "Peşə təhsili və gələcək üçün bacarıqlar", "Müəllim hazırlığı və müəllimlərin peşəkar inkişafının prioritet məsələləri", "Elm və ali təhsilin inteqrasiyası", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlbi: inklüziv, inteqrasiyalı və xüsusi təhsil", "Məktəbəqədər təhsilin məzmunu və əhatə dairəsinin genişləndirilməsi" mövzularında panel sessiyalarla davam etdirib.

Qurultay işini dekabrın 16-da yekunlaşdıracaq.

# "Yaşıl enerji məkanı" üzrə İşçi qrupunun növbəti iclası keçirilib

"Yaşıl enerji məkanı" İşçi qrupunun növbəti iclası keçirilib.



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, energetika nazirinin müavini Elnur Soltanovun sədrliyi ilə keçirilən iclasda paylayıcı şəbəkədə elektrik təchizatının yaxşılaşdırılması, elektroenergetika sistemində müstəqil təchizatçıların fəaliyyətinin təşviq edilməsi, bərpaolunan enerji infrastrukturunun genişləndirilməsi, bu sahədə informasiya sisteminin yaradılması, hidrogenin istehsalı sahəsi, istixana effekti yaradan qazların inventarlaşdırılması, energetika sektorunda karbon tutulması, enerji səmərəliliyinin təmin edilməsi və digər tədbirlərlə bağlı İşçi qrupu üzvlərinin rəy və təklifləri dinlənilib.

İclasda strategiya sənədi üzrə növbəti illərdə icra ediləcək tədbirlər və hədəflər, onların tam, vaxtında, effektiv və maneəsiz həlli yolları ətrafında müzakirələr aparılıb.

Qeyd edilib ki, "Yaşıl enerji məkanı" İşçi qrupunda Energetika Nazirliyi və İİTKM ilə yanaşı, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı, Rəqəmsal İnkişaf və Nəqliyyat, Maliyyə, Fövqəladə Hallar nazirliklərinin, SOCAR, Mərkəzi Bank, Azərbaycan İnvestisiya Holdinqi, Dövlət Statistika Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Gömrük Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, "Azərsu", "Meliorasiya və Su Təsərrüfatı", "Azərenerji", "Azərişıq", "Azəristiliktəchizat" ASC-lərin nümayəndələri təmsil olunublar.

## 7 FEVRAL AZƏRBAYCANDA NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

# İLHAM ƏLİYEV seçkilərə



*Əvvəli 1-ci səh.*

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə möhtəşəm nailiyyətlər qazanılıb, dövlətimizin və xalqımızın qarşısında ən ümdə vəzifə olan Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin edilib: "Ulu Öndərimizin dahiyanə söylədiyi bir fikir var: "Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu gün məhz Ulu Öndər Heydər Əliyevin yaratdığı güclü təməllər üzərində Prezident İlham Əliyev müasir, suveren, bütöv və yeni Azərbaycanı qurub. Düşünürəm ki, bu Zəfər yürüşünün davamı qarşıdan gələn seçkilərdən əhəmiyyətli dərəcədə asılıdır".

Daha sonra Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə aşağıdakı məsələlər daxil edilib:

- 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədinin irəli sürülməsi;
- 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının təsdiq edilməsi;
- Azərbaycan Respublikası Prezidentliyinə namizəd irəli sürmüş Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin təyin edilməsi;
- Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının yaradılması və onun tərkibinin təsdiq edilməsi.

Gündəlik yekdilliklə təsdiq edildikdən sonra "2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədinin irəli sürülməsi" məsələsi müzakirəyə çıxarılıb. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, seçkilər zamanı namizədlərin irəli sürülməsi məsələsi Seçki Məcəlləsinin 54-cü maddəsi ilə tənzimlənir. Həmin məcəllənin 54.1 maddəsində qeyd edilir ki, namizədin irəli sürülməsi haqqında qərarı siyasi partiya öz Nizamnaməsinə uyğun olaraq qəbul edir: "Nəzərinizə çatdırım ki, Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilmiş VII Qurultayında partiyamızın yeni Nizamnaməsi qəbul edilib. Yeni Nizamnaməyə əsasən Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada seçkilərdə namizədlərin irəli sürülməsi İdarə Heyətinin səlahiyyətinə aid edilib".

Sonra çıxış edən YAP Sədrinin müavini, Baş nazirin müavini Əli Əhmədov bildirib ki, ölkəmizdə növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı qərarın qəbul olunmasını şərtləndirən obyektiv reallıqlar mövcuddur. Onun sözlərinə görə, 30 il ərzində torpaqlarımızın işğal altında olması, Qarabağ münaqişəsinin mövcudluğu Azərbaycanın reallığı idi: "Həmin dövrdə bütün seçkilərdə prezidentliyə namizədliyi irəli sürülən şəxslərdən xalqın başlıca istəyi Qarabağ münaqişəsinin ədalətli surətdə həll olunması və Azərbaycanın işğal altında olan torpaqlarının azad olunmasından ibarət idi. Vətən müharibəsi nəticəsində Azərbaycanın torpaqlarının azad olunması və ərazi bütövlüyümüzün təmin edilməsi, xüsusilə də cari ilin sentyabr ayında keçirilmiş antiterror tədbirləri nəticəsində problemin bütövlükdə ədalətli şəkildə həll olunması Azərbaycanın gündəliyini də köklü surətdə dəyişdirdi. İndi Azərbaycanın gündəliyi münaqişə və müharibə ilə deyil, sülh və əməkdaşlıq məsələləri ilə təyin olunur. Müvafiq olaraq Azərbaycan Prezidentinə xalq tərəfindən verilən mandatın da mahiyyəti ciddi şəkildə dəyişmiş olur. Sülh və əməkdaşlıq məsələlərinin həll olunması, o cümlədən işğaldan azad olunmuş Azərbaycan torpaqlarının bərpa edilməsi və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasının təmin edilməsi vəzifələri müəyyənləşdirilib. Beləliklə, Azərbaycanda yeni reallıq meydana gəlib və bu, ölkəmizdə növbədənkənar prezident seçkilərinin keçirilməsinin əsaslarını müəyyən edib. Hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı, bütövlükdə Azərbaycan xalqı, o cümlədən dünya ictimaiyyəti ölkəmizdə növbədənkənar prezident seçkilərinin təyin olunması ilə əlaqədar qərarın yeni reallıqlardan irəli gələn qaçılmaz zərurət olduğunu aydın şəkildə dərk edir və bu cür də qiymətləndirir. Prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədinin irəli sürülməsi məsələsinə gəldikdə isə, mən ilk olaraq böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün partiyanın İdarə Heyətinin genişləndirilmiş iclasında Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında yekdil qərar qəbul edilməlidir və qəbul ediləcək. Bu gün qəbul edəcəyimiz qərar təkcə Yeni Azərbaycan Partiyasının növbədənkənar prezident seçkilərində namizədinin irəli sürülməsi yox, bütün Azərbaycan xalqının iradəsinin ifadəsi olacaq. Bu mənada hesab edirəm ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyəti tarixi qərar qəbul etmək kimi şərəfli bir missiyanı uğurla həyata keçirəcək".

YAP Sədrinin müavini söyləyib ki, növbədənkənar prezident seçkilərində cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi onun əzəmətli xidmətlərindən irəli gələn mənəvi və halal haqqıdır: "Eyni zamanda hesab edirəm ki, Prezident İlham Əliyevin namizədliyinin irəli sürülməsi 2020-ci ilin möhtəşəm Qələbəsindən sonra bütün Azərbaycan xalqının ona dərin hörmət, etibar və etimadının ən yüksək təzahürü kimi dərk edilməli və qiymətləndirilməlidir. Ümummilli Liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır. Prezident İlham Əliyev Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövlətinin daha da güclənməsinin, qüdrətlənməsinin, onun bütün dünyada şöhrətinin artmasının və qalib Azərbaycanın müəllifidir. Bu mənada, Prezidentin 20 illik fəaliyyətinin hər ayı, hər ili Azərbaycanın tarixində dərin iz buraxmış nailiyyətlər, qələbələr, uğurlarla zəngindir. Azərbaycanın iqtisadiyyatının qısa bir zaman ərzində 4 dəfə artması bütün dünyada ən uğurlu gənc dövlət statusu qazanmasının əsasını təşkil edir. Eyni sözləri Azərbaycanda sosial inkişafla əlaqədar bildirmək mümkündür. Sosial inkişaf Azərbaycanın simasının köklü surətdə dəyişməsi və modernləşməsi üçün əsas olub",- deyən Əli Əhmədov əlavə edib ki, Azərbaycanın beynəlxalq aləmdə hörmətinin və nüfuzunun artması da Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasətin uğurlu nəticələrindən biridir. Bunun bariz ifadəsi kimi bir neçə gün bundan əvvəl qlobal gündəliyin aktual problemlərindən olan COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi haqqında qərarın qəbul edilməsini nümunə göstərmək olar.





Əli Əhmədov söyləyib ki, Prezident İlham Əliyevin 20 illik fəaliyyətinin möhtəşəm nəticələrinin zirvəsində 2020-ci ildə Azərbaycanın qazandığı tarixi Zəfər dayanır. Bütün bunların hamısı Azərbaycan xalqının qəlbində cənab İlham Əliyevlə əlaqədar bir vəfa borcu hissi formalaşdırıb: "Prezident İlham Əliyevin namizədliyinin irəli sürülməsi Azərbaycan vətəndaşlarının ona bəslədiyi böyük ümidlərlə əlaqədardır. Prezident İlham Əliyev 20 illik fəaliyyəti nəticəsində Azərbaycan xalqının istək və arzularına uyğun şəkildə ölkəyə rəhbərlik etmək imkanlarına malik olan tarixi şəxsiyyət olduğunu sübut edib. Bu hisslər və duyğular əsasında cənab İlham Əliyevin növbəti illər ərzində Azərbaycana rəhbərliyindən vətəndaşlarımız yenə də böyük gözləntilər ifadə edirlər. Bu gözləntilərin ifadə olunması çox ciddi səbəblərə söykənir. Bu mənada hesab edirəm ki, Azərbaycan vətəndaşları qarşıdan gələn növbədənkənar prezident seçkilərinə cənab İlham Əliyevə qəlblərində bəslədikləri vəfa borcunun ifadə olunması üçün gözəl bir fürsət kimi baxırlar. Mən böyük şərəf və məmnuniyyətlə növbədənkənar prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin namizədliyini irəli sürür, onun namizədliyinin irəli sürülməsinin ölkəmiz və xalqımız üçün uğurlu, faydalı olduğuna əminlik ifadə edirəm".

Müzakirələr zamanı çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov bildirib ki, bu gün Yeni Azərbaycan Partiyası öz siyasi tərcümeyi-halının ən şərəfli günlərini yaşamaqdadır: "Çünki biz Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyi yeni reallıqda Yeni Azərbaycan Partiyası Sədrinin prezidentliyə namizədliyini irəli sürürük. Bu, təkcə Yeni Azərbaycan Partiyasının siyasi tərcümeyi-halında mühüm bir səhifə deyil, bütövlükdə Azərbaycan xalqının və dövlətçiliyinin mühüm bir səhifəsidir. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində 1923-cü ildə yaradılmış "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Azərbaycan üçün böyük təhdid olduğunu bildirmişdi. Yüz ildən sonra Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Prezidenti İlham Əliyev bu problemi tarixin arxivinə gömdü. Ona görə də hər birimiz üçün böyük qürur və şərəfdir ki, Azərbaycan dövlətçiliyi tarixinə, hətta türk dövlətləri tarixinə öz imzasını atmış, möhür vurmuş bir siyasi liderin namizədliyini irəli sürəcəyik. Düşünürəm ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin qəbul edəcəyi qərar ümumxalq partiyası kimi bütövlükdə Azərbaycan xalqının iradəsinin təcəssümüdür".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu çıxışında bildirib ki, 2023-cü il Azərbaycan xalqının tarixi yaddaşında daim qalacaq çox mühüm hadisələrlə zəngindir: "Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq bütün ərazilərimizdə suverenliyin təmin olunduğu bir şəraitdə Azərbaycan vətəndaşları öz seçki hüquqlarından istifadə edəcəklər. Azərbaycan Prezidenti İlham Əliyevin xalqımıza vermiş olduğu çoxsaylı töhfələrdən biri də məhz bundan ibarətdir".

Onun sözlərinə görə, cənab İlham Əliyevin təkcə Azərbaycan dövləti və xalqı qarşısında deyil, bütün dünya qarşısında çox böyük xidmətləri var. Buna görə də yenə də heç bir mübaliğəyə yol vermədən qeyd edə bilərik ki, cənab İlham Əliyev təkcə Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə deyil, bütün dünyaya gərəkdir. Çünki onun təşəbbüsləri, həqiqətən də, qlobal təhlükəsizliyin bir çox istiqamətlərdə təmin olunmasında təsirli rol oynayıb. Bu kontekstdə bir məqamı ayrıca vurğulamaq lazımdır ki, BMT-nin mövcudluğu tarixində dördüncü dəfə Prezident İlham Əliyevin təşəbbüsü ilə Baş Assambleyanın xüsusi toplantısı keçirilib ki, bu da bəşəriyyəti narahat edən çox ciddi problemin müzakirəsinə həsr olunmuşdu. Təbii ki, cənab İlham Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında, Cənubi Qafqaz regionunda, beynəlxalq müstəvidə vermiş olduğu töhfələri sadalamaqla sonlandırmaq mümkün deyil. Bu baxımdan hesab edirəm ki, bu gün Yeni Azərbaycan Partiyasının İdarə Heyəti tarixi bir qərar verir".

Çıxış edən YAP İdarə Heyətinin üzvü Elnarə Akimova bildirib ki, taleyimizdə xüsusi rolu olan müstəqillik dönəminin son 20 ilində Prezident İlham Əliyevin misilsiz xidmətlərinin olduğu danılmaz bir faktdır. Cənab İlham Əliyev liderlik statusuna və fəaliyyətinə yeni anlamlar qazandıran bir şəxsiyyətdir. Təbii ki, o, Azərbaycanın dünya arenasında tanıdılması üçün misilsiz xidmətlər göstərib. "Düşünürəm ki, Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri bütün fəaliyyəti ərzində milli məfkurəyə yönəlik siyasət yürütməsi, azərbaycançılıq ideologiyasını uca tutması, milli məfkurənin bütün dəyərlərini, bütün çalarlarını qorumasıdır. Prezidentimiz Şuşanı "Azərbyacanın mədəniyyət paytaxtı" elan etmişdi. Bu il isə Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan olundu. Gələn il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub. Heç şübhəsiz ki, növbəti illərin birində Şuşa həm də dünyanın mədəniyyət paytaxtına çevrilə bilər. Çünki Prezident İlham Əliyev Şuşanı həm də bütün dünyaya qazandırdı, bu şəhərin mədəniyyət beşiyi, onun nə qədər böyük sivilizasiya mənbəyi olduğunu sübut etdi",- deyə E.Akimova vurğulayıb. O qeyd edib ki, Prezident İlham Əliyev təkcə 30 illik deyil, 200 illik tarixi taleyimizdə bütöv Azərbaycan anlayışını yenidən özümüzə qaytardı. Qarşıda da bir sıra məsələlər var ki, onların da həlli məhz cənab İlham Əliyevdən asılıdır. Buna görə yenə də onun liderliyinə ehtiyacımız var".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov çıxışında bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2023-cü il 15 oktyabr tarixində Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə üçrəngli bayrağımızı ucaltması ilə Azərbaycan bütövləşdi: "Gənclər son 30 il ərzində daim bu fikirlə böyüyürdü və bilirdi ki, Qarabağ təkcə torpaq məsələsi deyil, Qarabağ həm də namus, qeyrət məsələsidir. Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpa olunması və bütövləşməsi xalqımızın şərəfini özünə qaytardı. Azərbaycan xalqının başını uca edən cənab İlham Əliyev oldu".

K.Cəfərov deyib ki, məhz Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyində Azərbaycanın bütövləşməsi də təsadüfi deyil: "Çünki istər sovet Azərbaycanı dönəmi, istər müstəqillik zamanı, istərsə də indiki tarix onu göstərir ki, Azərbaycanın rifahı həmişə Heydər Əliyev irsi ilə bağlı olub. Bu gün də əminik ki, Azərbaycan məhz Heydər Əliyev irsi ilə yeni Azərbaycandan qüdrətli Azərbaycana əmin addımlarla irəliləyəcək".

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs bütün mənalarda Azərbaycan xalqının maraqlarına əsaslanıb: "Əlbəttə ki, Ümummilli Lider Heydər Əliyevin yaratdığı təməl üzərində Prezident İlham Əliyevin 20 illik uğurlu fəaliyyəti güclü, müstəqil, öz qətiyyəti və mövqeyi ilə dünyada seçilən bir ölkə quruculuğuna həsr edilib. Cənab İlham Əliyev yalnız Azərbaycanın deyil, bütün bəşəriyyətin maraqlarını əsas götürərək dünyada gedən proseslərə təsir göstərmək, beynəlxalq təşkilatları məhz insan amilinə xidmət etməyə yönəltmək kimi məzmunlu siyasət həyata keçirən bir şəxsiyyət kimi dünyada tanınmaqdadır. Ona görə düşünürəm ki, bugünkü qərarımız həm də regionda sülh və əmin-amanlığa, təhlükəsizliyə, yeni nizamın insanların maraqlarına uyğun qurulmasına xidmət edəcək bir addım kimi dəyərləndirilməlidir. Bu qərar Azərbaycan xalqının ürəyincədir, onun hər bir nəfərinin marağında olan məsələdir. Yanaşma bundan ibarətdir ki, biz növbəti dönəm üçün də Azərbaycan, region və dünyadakı nizamın hər bir insan üçün faydalı olmasına xidmət edəcək fəaliyyət ortaya qoyan şəxsiyyəti prezident seçməliyik. Bu, Azərbaycanın gələcək inkişafına, növbəti illərdə də ölkəmizə və xalqımıza xidmət edəcək siyasəti dəstəkləmək deməkdir. Bu qərarımızla xalqın ümumi mövqeyini bir daha ifadə edəcəyik".

YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, Azərbaycan keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub və Prezident İlham Əliyev Heydər Əliyev yolu ilə ölkəmizi çox böyük irəliləyişə aparıb. İstər iqtisadi, siyasi müstəvidə, istərsə də beynəlxalq miqyasda Azərbaycan çox böyük nailiyyətlərə imza atıb. Onun sözlərinə görə, Qarabağın işğaldan azad edilməsi və Azərbaycanın dünya miqyasında bir çox məsələlərdə söz sahibinə çevrilməsi, o cümlədən Qoşulmama Hərəkatında Prezidentimizin rəhbərliyi ilə dünyanı düşündürən bir çox problemlərin BMT səviyyəsində gündəmə gətirilməsi cənab İlham Əliyevin tarixi xidmətləridir: "Bu tarixi xidmətlər, uğurlu missiya davam etməlidir və cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının Sədri kimi növbəti mərhələdə prezidentliyə namizəd olaraq irəli sürülməsi tarixi zərurətdir. Onun xalq tərəfindən dəstəklənməsi və qələbə qazanması isə aksiomadır. Əminəm ki, Prezident İlham Əliyev tarixi missiyasını yeni uğurlarla, yeni zirvələr fəth etməklə davam etdirəcək. Biz yeni zirvələrin fəthi istiqamətində Prezidentimizin yenidən namizədliyinin irəli sürülməsinə birmənalı şəkildə dəstək verəcəyik".

7 FEVRAL AZƏRBAYCANDA NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

# YAP-ın namizədi kimi qatılır





M.Qurbanlı qeyd edib ki, Yeni Azərbaycan Partiyası və onun üzvləri Azərbaycan cəmiyyətinin bütün təbəqələrini özündə birləşdirir: "Əminəm ki, yalnız ölkə vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının gözü bu gün Vətəndədir. Çünki Azərbaycan onlar üçün istinad nöqtəsidir, bir mayakdır və Prezident İlham Əliyev də dünya azərbaycanlılarının lideridir. Ona görə də dövlət başçısı İlham Əliyevin yenidən namizədliyinin irəli sürülməsi, qeyd edildiyi kimi, tarixi zərurətdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev xalqımızın qürurlu, şərəfli və möhtəşəm tarixi anlar yaşadığını bildirib: "Ölkəmizin qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası cənab İlham Əliyevin prezidentliyə namizədliyini irəli sürür. Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini böyük inamla həyata keçirərək ölkəmizi rəhbərlik etdiyi 20 il ərzində başqa dövlətlərin yüz illərlə keçmədiyi bir uğurlu yolla aparan, Azərbaycanın tarixi qələbəsini təmin edən, ərazi bütövlüyünü və suverenliyini bərpa edən Prezident İlham Əliyev xalqımıza şərəfli anlar, möhtəşəm günlər yaşatdı, xalqın mübarizə və qəhrəmanlıq ruhunu yenidən dirçəltdi və özünə qaytardı".

M.Quliyev deyib ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 il ərzində ölkəmizin sosial-iqtisadi inkişafı olduqca böyük sürətlə davam edib. Bu illər ərzində dövlətimizin sosialyönümlü xərclərinin büdcəsi 20 dəfə, minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 16 dəfə, orta aylıq pensiya 14 dəfə artıb: "Müqayisə etsək, görərik ki, dünyada elə bir dövlət yoxdur ki, bu qədər böyük sosialyönümlü siyasət aparsın, belə uğurlar əldə etsin. Prezident İlham Əliyev həmişə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan xalqı, onun rifahı dayanır. Bu gün xalqımızın bütün zümrələrindən olan nümayəndələri dövlət başçısına inanır, ona güvənir",- deyən YAP İdarə Heyətinin üzvü əlavə edib ki, qarşıda böyük perspektivlər var, Qarabağın və Şərqi Zəngəzurun bərpası məsələsi əsas vəzifələrdəndir. Heç şübhəsiz ki, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük qələbələrə hazırdır.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin genişləndirilmiş iclası mahiyyət etibarilə tarixi əhəmiyyət daşıyır: "Çünki İdarə Heyətinin iclasında YAP-ın prezidentliyə irəli sürdüyü namizəd "Hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" vədinə hər zaman sadiq qalan, sözü imzası qədər keçərli olan, nəyi nə zaman və necə etməyi bilən bir liderdir. O, elə bir liderdir ki, Azərbaycana neçə yüzilliklərdən sonra tarixinin ən güclü dövrünü yaşatdı. Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi həm də Heydər Əliyev siyasətinin dəstəklənməsidir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxışında bildirib ki, hər bir dövlətin gücü həm də onun iqtisadiyyatı ilə ölçülür. Azərbaycanın iqtisadiyyatı son 20 il ərzində möhtəşəm bir yol keçib. "Məhz Azərbaycanın iqtisadi gücünün mütəmadi artması torpaqlarımızın işğaldan azad edilməsinə, iqtisadi gücümüzün milli maraqlara xidmət etməsinə gətirib çıxardı. Son 20 il ərzində Azərbaycan iqtisadiyyatı 4 dəfə böyüyüb. Bizim büdcə xərclərimiz təxminən 30 dəfə artıb. Bu gün Azərbaycanın strateji valyuta ehtiyatları Azərbaycanı borcdan ən az asılı olan bir dövlətə çevirib ki, bütün bunların səbəbi Prezident İlham Əliyevin iqtisadi sahədə tətbiq etdiyi yeniliklərdir. Hər bir xalq istəyər ki, onun rəhbəri qətiyyətli, ədalətli, humanist olsun və milli maraqları müdafiə etsin. Cənab İlham Əliyev belə bir liderdir. O, ölkəmizə rəhbərliyi dövründə Azərbaycan xalqının bütün maraqlarını təmin etmək üçün bir addım belə geri çəkilmədi. O, Azərbaycan xalqının başını dik tutdu",- deyən T.Mirkişili əlavə edib ki, bütün bu reallıqları nəzərə alsaq, əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi Azərbaycan xalqının istəyidir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov bildirib ki, Prezident İlham Əliyev ötən dövr ərzində fəaliyyəti ilə nəinki Azərbaycanda, həm də dünya miqyasında uğurlu siyasətçi obrazını yarada bilib. Onun fikrincə, Prezident İlham Əliyev uğurlu fəaliyyəti ilə, eyni zamanda Azərbaycanın gələcək obrazını yarada bilib: "O nəinki Azərbaycanın gələcək obrazını yaratdı, eyni zamanda regionun gələcəyi ilə bağlı özülləri qoydu. Qarabağ probleminin həll olunması ilə Azərbaycanın və Cənubi Qafqazın regionda, dünyada yeri və rolu önə çıxdı. Məhz budur qlobal lider, qlobal siyasətçi, gələcəyə yön verən və Azərbaycanın yerini müəyyən edən lider".

Ş.İsmayılov söyləyib ki, cənab İlham Əliyevin növbəti dönəmdə Prezident seçilməsi nəinki Azərbaycan üçün, o cümlədən beynəlxalq miqyasda da bir siyasi arzu və ümiddir: "Çünki Prezident İlham Əliyev beynəlxalq miqyasda özünəməxsus yeri və rolu olan bir liderdir. Mən də siyasi həmfikirlərimin mövqeyini dəstəkləyərək cənab İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləyirəm".

YAP İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov bildirib ki, cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi Heydər Əliyev yoluna sədaqət nümunəsidir: "Cənab İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra növbəti prezidentlik fəaliyyətində daha möhtəşəm bir missiyanı həyata keçirəcəyinə inanırıq. Bu, Cənubi Qafqazda əbədi sülhün bərqərar olunmasıdır. Cənubi Qafqazda əbədi sülhü yalnız və yalnız cənab Prezident bərqərar edə bilər. İkinci ən böyük missiya türk dünyasını birləşdirməkdir, onu da cənab İlham Əliyev edəcək. Ona görə də bu böyük missiyaların həyata keçirilməsi üçün cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi tarixi zərurətdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov çıxışında bildirib ki, dövlət başçısı İlham Əliyev 20 il ərzində Azərbaycan xalqı, dövləti qarşısında misilsiz xidmətləri ilə ölkəmizin, bəlkə də, birəsrlik inkişafını təmin edib: "Bu gün Azərbaycan dünyanın ən nüfuzlu ölkələrindən birinə çevrilib. Ölkəmizin Qoşulmama Hərəkatı kimi, BMT-dən sonra ən böyük beynəlxalq təsisata rəhbərlik etməsi, Azərbaycanın haqq işinin, ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsi, təkcə erməni faşizminə deyil, onun arxasında duran qüvvələrə də qalib gəlməsi tarixi uğurlardır. Dünyada ikili standartlar mövcuddur və Azərbaycana qarşı müəyyən dairələr bunu tətbiq edirlər. Azərbaycan Prezidentinin qətiyyətli siyasəti, dəmir iradəsi qarşısında onlar heç nəyə nail ola bilmədilər. Bu gün Azərbaycan özünün ən parlaq günlərini yaşayır. Dövlət başçımızın da qeyd etdiyi kimi, çoxəsrlik tarixində Azərbaycan heç vaxt bu qədər güclü olmayıb. 20 il ərzində xalqımız hər zaman Prezident İlham Əliyevin siyasətini dəstəkləyib. Bu reallıq dəyişməzdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı möhtəşəm uğurlardan bəhs edib. Onun sözlərinə görə, ötən dövrdə bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük nailiyyətlər qazanılıb. R.Əliyev deyib ki, cənab İlham Əliyev 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra idmanın inkişafında yeni bir mərhələ başlandı: "Görülən işlər nəticəsində bu sahənin inkişafına nail olmaqla yanaşı, ölkəmiz mötəbər beynəlxalq idman tədbirlərinə də müvəffəqiyyətlə evsahibliyi edir. Azərbaycanda Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 və digər beynəlxalq idman yarışları keçirilib".

"Azərbaycan dünyada nüfuzlu dövlətə çevrilib. Biz inanırıq ki, Prezident İlham Əliyev növbəti mərhələdə də möhtəşəm uğurlara imza atacaq",- deyə R.Əliyev bildirib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov çıxışında 2023-cü ilin Azərbaycan üçün böyük uğurlarla yadda qaldığını bildirib: "Dövlət suverenliyinin tam təmin olunması, beynəlxalq müstəvidə mövqelərimizin daha da möhkəmlənməsi, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıdışı möhtəşəm uğurların nümunəsidir. Təbii ki, bu uğurlara Ulu Öndər Heydər Əliyevin siyasi kursunu inamla davam etdirərək Azərbaycan dövlətinə, xalqına liderlik edən Prezident İlham Əliyevin sayəsində nail olmuşuq. Ölkəmizin gələcək uğurları da cənab İlham Əliyevin adı ilə bağlıdır. Ona görə də partiyamızın Sədrinin prezidentliyə namizədliyinin irəli sürülməsindən qürur duyuruq".

YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə Prezident İlham Əliyevin uzaqgörən siyasətçi və dövlət xadimi olduğunu bildirib. A.Rəhimzadə dövlətimizin başçısının təşəbbüsü ilə həyata keçirilən regional və qlobal layihələrin önəmindən bəhs edib.

O, Prezident İlham Əliyevin enerji siyasətinin əhəmiyyətindən də danışıb: "Məlumdur ki, Azərbaycan neft-qaz ölkəsidir. Bununla belə, cənab İlham Əliyev ölkəmizin "yaşıl enerji"yə keçidini elan edib. Bu istiqamətdə böyük layihələr həyata keçirilir. Düşünürəm ki, Prezidentimizin gələcək üçün də çox böyük layihələri var. Bu layihələri həyata keçirməkdən ötrü cənab İlham Əliyevin növbəti dövrdə də ölkəmizə rəhbərlik etməsi lazımdır".

Müzakirələrə yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov İdarə Heyətinin üzvlərinin yekdil fikirdə olduğunu bildirib. "Bu müzakirələr bir daha göstərdi ki, Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur. Cənab İlham Əliyevin siyasəti Azərbaycanı daha parlaq gələcəyə aparır, ölkəmizin daha güclü dövlət kimi beynəlxalq arenada öz mövqelərini möhkəmləndirməsinə zəmin yaradır. Prezident İlham Əliyev davamlı inkişafa yönəlmiş siyasəti ilə ölkəmizə bundan sonra da böyük uğurlar, yeni zəfərlər, zirvələr bəxş edəcək",- deyə YAP Sədrinin müavini vurğulayıb.

Müzakirələrin sonunda Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərində Yeni Azərbaycan Partiyasından namizəd irəli sürülməsi haqqında yekdilliklə qərar qəbul olunub.

Sonra Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Daha sonra iclasın gündəliyində olan digər məsələlər müzakirə olunub. İclasda 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planı təsdiq edilib.

Sonra Azərbaycan Respublikası Prezidentliyinə namizəd irəli sürmüş Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin təyin edilməsi məsələsinə baxılıb. YAP Sədrinin müavini - Mərkəzi Apartın rəhbəri Tahir Yaqub oğlu Budaqov və YAP Sədrinin müavini Əli Cavad oğlu Əhmədov Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri, YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Safalan oğlu Tağıyev isə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilib.

İclasda Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının yaradılması və onun tərkibinin təsdiq edilməsi məsələsi də müzakirə olunub. Müzakirələrdən sonra 21 nəfərdən ibarət YAP Mərkəzi Seçki Qərargahının yaradılması haqqında qərar qəbul olunub.

YAP Mərkəzi Seçki Qərargahının üzvləri aşağıdakı tərkibdə təsdiq edilib:

1. Budaqov Tahir Yaqub oğlu - YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri
2. Əhmədov Əli Cavad oğlu - YAP Sədrinin müavini
3. Rəhimzadə Arif Qafar oğlu - YAP Veteranlar Şurasının sədri, İdarə Heyətinin üzvü
4. Qurbanlı Mübariz Qəhrəman oğlu - YAP İdarə Heyətinin üzvü
5. Muradova Bahar Əvəz qızı - YAP İdarə Heyətinin üzvü
6. Hüseynova Sevinc Əmirəhməd qızı - YAP Təftiş Komissiyasının sədri
7. İslamov Bəxtiyar Qabil oğlu - YAP Gənclər Birliyinin sədri
8. Tağıyev Əhliman Safalan oğlu - YAP Mərkəzi Aparatı rəhbərinin müavini
9. Novruzov Siyavuş Dünyamalı oğlu - Milli Məclisin deputatı, Milli Məclisin Regional məsələlər komitəsinin sədri
10. Qələndərov Nurlan Vəli oğlu - YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri
11. Hüseynov Nazim Meyxoş oğlu - YAP Mərkəzi Aparatının Maliyyə-təsərrüfat şöbəsinin müdiri
12. Bədəlova Ramilə Alxan qızı - YAP Mərkəzi Aparatının Sənədlərlə iş və statistika şöbəsinin müdiri
13. İmaməliyev Asif Ağalar oğlu - YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdirinin müavini
14. Gülməmmədov Rəfael Şirməmməd oğlu - YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdirinin müavini
15. Musayeva Zəkiyyə Balağa qızı - YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdirinin müavini
16. Məmmədli Hülya Gündüz qızı - YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdirinin müavini
17. Məhərrəmov Məhəmməd Yusif oğlu - YAP Həmkarlar İttifaqı Komitəsinin sədri
18. Musayev Alqış Həsən oğlu - "Yeni Azərbaycan" qəzetinin baş redaktoru
19. Quliyev Bəhruz Vaqif oğlu - "Səs" qəzetinin baş redaktoru
20. Rəhimzadə Vüqar Gəncəli oğlu - YAP Xətai rayon təşkilatının sədri, "İki sahil" qəzetinin baş redaktoru
21. Vəlibəyov Ramil Vaqif oğlu - YAP Nizami rayon təşkilatının sədri.

İclasa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov seçki kampaniyasının uğurla həyata keçirilməsi üçün qarşıda duran vəzifələrdən bəhs edib, bu şərəfli və məsuliyyətli işdə partiya üzvlərinə uğurlar arzulayıb.

***"Azərbaycan"***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Prezident seçkiləri yeni reallıqlardan irəli gəlir

"Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi dövlətimizin gücünü bütün dünyaya nümayiş etdirdi. Beynəlxalq birlik şahid oldu ki, güclü iqtisadiyyata, hərbi potensiala, siyasi-diplomatik imkanlara, müsbət beynəlxalq imicə malik olan Azərbaycan istənilən strateji hədəfi vaxtında və dəqiq yerinə yetirmək əzmindədir".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, postmüharibə dövrü də bu gerçəkliyi ifadə edir və Azərbaycan yeni mərhələdə qarşıda duran milli məqsədləri reallaşdırmaqdadır. Bu baxımdan, yeni reallıqlar fonunda dövlətimiz mühüm və daha uğurlu gələcəyə hesablanmış addımlar atır.

Onun sözlərinə görə, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra Azərbaycanda və regionda yeni reallıqlar yaranıb, ölkəmiz inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil olub. Dövlət başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkilərinin təyin olunması da məhz yeni şərait və reallıqlardan irəli gəlir. Yaranan reallıqlara uyğun olaraq çağırışlarımız da dəyişib. İndiki strateji mərhələdə inkişafımızın yeni çərçivələrini müəyyənləşdirməliyik ki, bunlar da növbədənkənar seçkilərin keçirilməsinin aktuallığını artırıb. Xüsusilə qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcək. Növbədənkənar seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir. Bu seçkilərin Zəfər seçkiləri də adlandırılması onun önəmindən xəbər verir.

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində son 20 ildə Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb: "Hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə isə milli gücünün artmasını təmin edib. Bununla yanaşı, tarazlaşdırılmış və milli maraqlara əsaslanan siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənib. Hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Bütün bunların fonunda gələn il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri cənab İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisidir. Çünki Prezident İlham Əliyev bu günə qədər verdiyi hər bir vədi uğurla həyata keçirib".

S.Fətəliyevanın fikrincə, regionda tam müstəqil bir ölkənin olmasını və Azərbaycanın qələbəsini həzm edə bilməyən dövlətlərin təxribatlarının qarşısını almaq üçün siyasi sistemin gücləndirilməsi strateji əhəmiyyət kəsb edir. Təbii ki, qazanılan bu Zəfər dövlətimizin milli maraqlarımıza əsaslanan siyasətinin ən parlaq nümunələrindəndir. Bu Zəfərdən sonra Azərbaycanın nəinki regionda, o cümlədən beynəlxalq müstəvidə də mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Bütövlükdə, Prezident İlham Əliyevin milli maraqlarımıza uyğun siyasət həyata keçirməsi dövlətimizin uğurlarını davamlı olaraq artırır. Şübhəsiz ki, qarşıdan gələn seçkilər də ölkəmizdə həyata keçirilən davamlı islahatların nümunəsi kimi dövlətimizin gücünün daha da artmasını şərtləndirən amillər sırasında olacaq.

Deputat diqqətə çatdırıb ki, müxalifətin radikal qanadının bu seçkilərlə bağlı mövqeyi reallıqdan tamamilə uzaqdır və ictimai rəyə təsir etmək imkanında deyil. Çünki müəyyən xarici dairələrin əlində alət olan bu "siyasətçi"lərin cəmiyyətdə zərrə qədər də nüfuzu yoxdur.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***



## Seçim dəyişmir

### Xalq şanlı zəfərin memarına alternativ görmür

Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq fevralın 7-də bütün ölkə ərazisində prezident seçkiləri keçiriləcək. Seçki Məcəlləsinə əsasən, Azərbaycan Respublikası Prezidentinin növbədənkənar prezident seçkilərini elan etdiyi gündən başlayaraq bir həftədən gec olmayan müddətdə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən çərşənbə gününə təyin edilir və 60 gün müddətində keçirilir. Həmin müddətdə Seçki Məcəlləsinə əsasən, bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar, namizədlərin hamısına seçkiqabağı fəaliyyət üçün bərabər şərait təmin edilir, o cümlədən təşviqat aparılması üçün mediadan bərabər istifadə şərtləri müəyyənləşdirilir.

Artıq Mərkəzi Seçki Komissiyası seçkilərin keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə reallaşdırılması üçün Təqvim Planını təsdiq edib. Bu, 1993-cü ildən ötən 30 ildə Azərbaycanda demokratik şəkildə baş tutacaq 7-ci prezident seçkisi olacaq.

Ümumiyyətlə, növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş siyasi təcrübədir. Növbəti seçkilər bəzi hallarda müəyyən səbəblərdən təxirə salınır, bəzi hallarda isə vaxtından əvvəl keçirilir. Seçkilər növbədənkənar keçiriləndə, sadəcə, seçicilər öz siyasi iradələrini vaxtından əvvəl ifadə edirlər. Bunun üçün bütün siyasi partiyalara və namizədlərə bərabər imkanlar yaradılır. Üzvlərinin sayı ilə bağlı dövlət reyestrinə yeni alınmış 26 siyasi partiya və müstəqil namizədlər üçün ölkə Konstitusiyasında və Seçki Məcəlləsində bütün bərabər imkanlar var. Bu yanaşma ölkədə ədalətli rəqabət mühitinin təmin edildiyinin bariz nümunəsidir. Potensialı və elektoratı olan bütün siyasi qüvvələr üçün seçkilərin keçirilməsi faktı universal fürsətdir. Bu mənada seçkilərin keçirilməsi ilə bağlı olan istənilən narazılıq yalnız qərəzli mövqeyin və məhdud potensialın təcəssümü kimi dəyərləndirilməlidir. Hər bir özünə güvənən namizəd bu hüquqdan sərbəst şəkildə istifadə edə bilər.

Fevralın 7-nə təyin edilmiş prezident seçkiləri müasir Azərbaycanın tarixində əvvəlki seçkilərdən mahiyyətinə və məzmununa görə çox fərqli olacaq. Bu hadisə müstəqil və suveren dövlətçilik prinsiplərinin məntiqinə və fəlsəfəsinə tam uyğundur. Təbii ki, əvvəlki hər bir seçkinin müstəqillik tariximizdə öz önəmi var. Hər seçki ilə, xüsusilə son 25-30 ildə dövlətimizin inkişafında yeni mərhələnin və səhifənin açıldığı mübahisəsizdir. Bu seçkilər isə Azərbaycanın tam yeni bir sima ilə qatılacağı və özünü dünyaya yeni imiclə nümayiş etdirəcəyi hadisə olacaq.

Bütövlükdə seçki dövlət hakimiyyəti orqanlarının Azərbaycan vətəndaşları tərəfindən formalaşdırılması üçün yeganə legitim vasitə olmaqla yanaşı, həm də yeni başlanğıclara körpü salan stimulverici amildir. Prezident seçkiləri həm də milli iradənin təntənəsi, Azərbaycan xalqının vahid mövqeyinin və gələcəyə baxış bucağının ifadəsi üçün vasitədir. Növbəti prezident seçkisinin çağdaş Azərbaycanın tarixində mühüm rol oynayacağına, qarşıda dayanan milli hədəflərimizə çatmaq üçün yeni bir başlanğıca çevriləcəyinə şübhə yoxdur.

2018-ci ilin də prezident seçkiləri növbədənkənar keçirilmişdi. Həmin seçkilərdən sonra Azərbaycan yüksək uğurlara imza atdı. Ən böyük uğur isə əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi, bütün ərazilərimiz üzərində milli suverenliyimizin təmin olunmasıdır. Hələ 2003-cü ildə andiçmə mərasimində Prezident İlham Əliyev bununla bağlı demişdi: "Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, 2023-cü ilin sentyabrında isə Qarabağda erməni separatizminə son qoyulması cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin ən mühüm hadisələridir. Bu qələbələr son bir neçə əsrlik tariximizin ən böyük uğurları, dövlətçiliyimizin şərəf salnamələridir. Ona görə bu seçki də ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti kimi tarixə düşəcək.

Dekabrın 15-də Qafqazın ən böyük siyasi təşkilatı olan, sıralarında 720,830 nəfəri birləşdirən Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin genişləndirilmiş iclası keçirilib və İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilib. İclasda həmçinin YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və YAP sədrinin müavini Əli Əhmədov prezidentliyə namizədin səlahiyyətli nümayəndələri təyin ediliblər. Eləcə də Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahı yaradılıb.

Əli Əhmədov bildirib bu, təkcə YAP-ın deyil, Azərbaycan xalqının qərarı olacaq. Həqiqətən də İlham Əliyevin prezidentliyə namizədliyi həm də xalqın qərarıdır. Bu, torpaqlarımızı düşməndən xilas edərək ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa edən, ölkəmizi qlobal aləmdə şöhrətləndirən, bir sözlə, Azərbaycanın bu gününü və sabahını işıqlandıran İlham Əliyevin haqqıdır. Ən əsası da odur ki, İlham Əliyevin 20 illik fəaliyyət dövrü çoxəsrlik dövlətçilik tariximizə bənzəri olmayan dövr kimi yazıldı. Bu illər Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi dövrü kimi xarakterizə olunur. Məhz İlham Əliyev 200 illik erməni xülyasını birdəfəlik məhv edərək adını tarixə Müzəffər Sərkərdə kimi yazdırdı. Şanlı zəfər Cənubi Qafqazda yeni reallıqlar yaratdı və bu, xalqımızın və dövlətimizin qarşısında yeni üfüqlər açdı. Əlbəttə ki, bütün bunlar zəfərimizi, uğurlarımızı həzm edə bilməyən qüvvələri 3 ildir ciddi narahat edir. Onlar hər fürsətdə Azərbaycana zərbə vurmağa can atırlar. Məhz bölgədə müstəqil siyasət yürüdən ölkəmizin uğurlarını qəbul edə bilməyən qərəzli dövlətlərin təxribatlarının qarşısını almaq üçün siyasi sistemin gücləndirilməsi olduqca vacib və strateji əhəmiyyət kəsb edir. Prezident seçkilərində xalqın seçimi də bütün bədxah qüvvələrə mesaj olacaq - Azərbaycanda xalq-prezident birliyini heç bir qüvvə sarsıda bilməz!

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## Xalq öz liderinə inanır və güvənir

"Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin 7 fevralında növbədənkənar prezident seçkilərinin keçirilməsi haqqında imzalanmış sərəncam mühüm önəm kəsb edir. Bu bir reallıqdır ki, müstəqil Azərbaycan tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcək. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb. Məhz bu kontekstdə növbədənkənar prezident seçkiləri ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti hesab edilir".



Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib ki, ölkəmizin 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə ərazi bütövlüyünü bərpa etməsi Prezident İlham Əliyevin uğurlu siyasi iradəsi və diplomatik bacarığının nəticəsidir: "İkinci Qarabağ savaşında ölkəmizin beynəlxalq birlik tərəfindən tanınan, qəbul edilən ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyuldu. 30 ilə yaxın Azərbaycan ərazilərini işğalda saxlayan təcavüzkar düşmən döyüş meydanında məğlub edildi və kapitulyasiya aktına imza atmalı oldu. 2023-cü ilin 19-20 sentyabr tarixlərində isə lokal antiterror tədbirləri ilə Azərbaycanın bütün ərazisində konstitusiya quruluşu, suverenliyimiz tam təmin edildi. Separatizm yuvası darmadağın olundu və separatçılığın kökü kəsildi. Artıq yeni bir reallıq yaranıb ki, bu da daha mütərəqqi və konseptual ideyaların ardıcıllıqla icrasını təşviq edir".

Deputat qeyd edib ki, seçkilərə qalib xalq kimi qatılmaq ciddi əhəmiyyətə malikdir. Bu mənada gələn il keçiriləcək prezident seçkilərini haqlı olaraq Zəfər seçkisi də adlandırırlar.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa verdiyi sözlərə hər zaman tam əməl etdidiyini vurğulayan Məlahət İbrahimqızı vurğulayıb: "Artıq şanlı üçrəngli bayrağımız Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalanır. Növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş siyasi təcrübədir. Növbəti seçkilər bəzi hallarda təxirə salınır, bəzi hallarda isə vaxtından əvvəl keçirilir. Məhz bu kontekstdə seçkilər növbədənkənar keçirildiyindən vətəndaşlarımız siyasi iradələrini sadəcə olaraq vaxtından əvvəl ifadə edəcəklər".

Məlahət İbrahimqızı, həmçinin bu seçkilərin keçirilməsini Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının və xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisi adlandırıb. Bildirib ki, xalqına qalibiyyət yaşadan Müzəffər Ali Baş Komandan Azərbaycanın bu gün regionda tam müstəqil siyasət yürüdən bir ölkə kimi tanınmasını təmin edib. Bunu qorumaqdan ötrü Azərbaycanın qələbəsini həzm edə bilməyən dövlətlərin təxribatlarının qarşısını almaq üçün siyasi sistemin gücləndirilməsi strateji əhəmiyyət kəsb edir.

Deputat vurğulayıb ki, bu seçkilər də tam şəffaf və demokratik prinsiplərə uyğun keçiriləcək: "Heç bir ictimai dəstəyi olmayan qüvvələr üçün isə bu seçkiyə qatılmaq indidən acı məğlubiyyət fonunda görünür. Amma hər zaman xalqın yekdil dəstəyi ilə əhatə olunmuş Prezident İlham Əliyev bu seçkinin də qalibi olmaqla Azərbaycanın qələbələr ssenarisinin ardıcıllığını təmin edəcək".

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

## Seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir

"2024-cü il fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri müstəqil Azərbaycanın tarixində ilk olaraq bütün ölkə ərazisində keçiriləcək seçkilər olacaq. Bu seçkiləri Zəfər seçkiləri də adlandırmaq olar. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi sözə tam əməl edərək Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi".



Bu fikirləri Milli Məclisin deputatı Jalə Əhmədova səsləndirib. Deputat bildirib ki, bu gün üçrəngli bayrağımız Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalanır: "Qeyd etmək lazımdır ki, növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş siyasi təcrübədir. Sadəcə olaraq, seçkilər növbədənkənar keçirildiyindən vətəndaşlarımız siyasi iradələrini vaxtından əvvəl ifadə edəcəklər. Bu seçkilər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisidir. Çünki Prezident İlham Əliyev bu günə qədər dediyi hər məsələni uğurla həyata keçirib".

Deputatın sözlərinə görə, "Qarabağ Azərbaycandır!" şüarını dilindən düşürməyən xalqımız uzun illər min bir zəhmət hesabına bu şüarı yaradan və həyata keçirən ölkə rəhbərinin yeni seçkilərdə yanında olacaq, xarici və daxili siyasətini, o cümlədən Qarabağda və ölkənin digər bölgələrində quruculuq işlərini fəal şəkildə dəstəkləyəcək.

Jalə Əhmədova vurğulayıb ki, növbədənkənar prezident seçkilərinin keçirilməsinə dair qərar ölkədə siyasi partiyaların üzvlərinin reyestrlərinin dövlət qeydiyyatına alınması prosesinin tamamlanmasından sonra qəbul olunub. Bununla da seçkilərdə iştirak etmək üçün dövlət qeydiyyatına alınmış bütün siyasi partiyalara imkan yaradılıb. Bu yanaşma ölkədə ədalətli rəqabət mühitinin təmin edildiyinin bariz nümunəsidir.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Yeni reallıqların doğurduğu zərurət

Azərbaycanın ictimai-siyasi həyatında növbəti tarixi hadisənin astanasındayıq. 2024-cü il fevralın 7-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Budəfəki seçkiləri digərlərindən fərqləndirməyimiz və tarixi hadisə kimi səciyyələndirməyimiz üçün bir sıra müstəsna şərtlər var. Bu növbədənkənar prezident seçkiləri Azərbaycanın yeni tarixində yeni dönəmin başlanğıcı olacaq. Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcək.



Ərazi bütövlüyünü və suverenliyini tam və qəti bərpa etmiş Azərbaycan Respublikası yeni siyasi dönəmə daxil olub və mövcud reallıqların fonunda seçkilərin keçirilməsi güclü və qüdrətli ölkə olaraq dövlətimizin yeni tarixi dönəmə qədəm qoyduğunu təsbit edir.

Dünya təcrübəsinə nəzər salsaq, növbədənkənar prezident seçkilərinin keçirilməsi kimi praktika, demək olar ki, bütün ölkələrin ictimai-siyasi həyatında təsadüf olunur.

Bəs Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçirilməsi hansı zərurətdən doğur? Əlbəttə, bunun əsasları var.

Prezident İlham Əliyev xalq arasında güclü nüfuz sahibidir. 20 illik hakimiyyəti dövründə Azərbaycanın mövqeyini həm daxildə, həm də xaricdə gücləndirən fəaliyyəti ilə xalqın etimadını və inamını qazanan siyasi liderin yenidən növbədənkənar seçkilər keçirilməsi barədə sərəncamını labüd edən səbəblər hazırda ən çox müzakirə olunan mövzudur.

Prezident İlham Əliyevin ali dövlətçilik görəvində ən ali məqsədi hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaqdır. Öz siyasi hakimiyyətini məhz xalq, dövlət və vətəndaş maraqları kontekstində formalaşdıran Prezident İlham Əliyev ötən dövr ərzində xalq qarşısında açıqladığı hədəfləri, üzərinə götürdüyü öhdəlikləri tam şəkildə gerçəkləşdirib. Ən əsası, Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması, Qarabağın separatist cilovundan azad olunması kimi mürəkkəb, hətta bəziləri tərəfindən həlli mümkünsüz görünən problemlər həll olunub. Yeni dövr yeni tələblər və şərtlər formalaşdırıb ki, məhz bu dönəmdə Azərbaycan üçün hazırkı inkişaf strategiyasına uyğun olaraq yeni hədəflərin müəyyənləşdirilməsinə zərurət yaranıb.

Regionda tam müstəqil bir ölkənin olmasını və Azərbaycanın qələbəsini həzm edə bilməyən dövlətlərin təxribatlarının qarşısını almaq üçün seçkilər əlavə imkanlar yaradacaq, siyasi sistemi daha da gücləndirəcək. Prezident İlham Əliyevin növbədənkənar prezident seçkilərinin keçirilməsi barədə sərəncamı bu baxımdan strateji əhəmiyyət kəsb edir və yeni reallıqların doğurduğu zərurət kimi dəyərləndirilməlidir.

Bütün sivil cəmiyyətlər öz maraqları, baxışları və tutduqları ideoloji xəttə görə müxtəlif siyasi cərəyanlara bölünür və qruplaşır. Cəmiyyətdə siyasi fikir və düşüncə azadlığının olması fundamental insan haqlarının tərkib hissəsidir. Məhz rəngarəng siyasi palitranın mövcudluğu cəmiyyətin sağlam fikir uğrunda mübarizəsini şərtləndirir, müxtəlif ideologiyaların çəkişməsində yetkin ictimai mövqenin güclənməsinə və güclü siyasi sistemin formalaşmasına gətirib çıxarır.

Siyasi partiyaların seçki prosesinin bütün mərhələlərində aktiv iştirakının təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətidir. Azərbaycanın seçki qanunvericiliyi kifayət qədər mükəmməldir, "Siyasi partiyalar haqqında" yeni qəbul olunmuş qanun isə ölkənin siyasi sisteminin sağlamlaşdırılması və effektivliyinin artırılması üçün lazımi hüquqi baza formalaşdırıb.

Azərbaycanın siyasi sistemi bu seçkilərin keçirilməsinə tam hazır vəziyyətdədir. Seçkilərin keçirilməsinə dair qərar ölkədə siyasi partiyaların üzvlərinin reyestrlərinin dövlət qeydiyyatına alınması prosesinin tamamlanmasından sonra qəbul olunub. Beləliklə də, seçkilərdə iştirak etmək üçün dövlət qeydiyyatına alınmış bütün siyasi partiyalara bərabər imkanlar yaradılıb.

Seçkilər ölkənin siyasi sisteminin gücünü, eyni zamanda bu sistemdə mövcud olan qüvvələr balansının müəyyənləşdirilməsi üçün əsas meyardır. Potensialı olan bütün siyasi qüvvələr, partiyalar üçün bu seçkilər əlverişli fürsətdir. Seçki Məcəlləsinə əsasən, bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar, namizədlərin hamısına seçkiqabağı fəaliyyət üçün bərabər şərait təmin edilir, o cümlədən təşviqat aparılması üçün mediadan bərabər istifadə şərtləri müəyyənləşdirilir. Mövcud rəqabət mühitində sivil prinsiplərə söykənən seçki mədəniyyətini göstərməklə iştirakçılığını təmin etmək öz siyasi gücünə inanan hər bir ictimai-siyasi partiya və ya hərəkatın öz məsuliyyəti olacaq.

Seçkilərdə iştirak həm də "Siyasi partiyalar haqqında" qanunun tələbidir. Bütün qanuni tələblərə, demokratik dəyərlərə və dünya təcrübəsinə əsaslanan formada keçirilməsi planlaşdırılan seçkiləri qərəzli ritorikalarla şərh etmək, bu yolla ictimaiyyəti çaşdırmaq və yanlış istiqamətə yönləndirmək cəhdləri çirkin siyasi sifarişlərin yerinə yetirilməsi kimi anlaşılmalıdır.

Azərbaycan dövlətinin yeni müstəqillik tarixində 1991-ci ildən təşəkkül tapmış seçki ənənəsi inkişaf edərək ildən-ilə daha da təkmilləşib və seçki mədəniyyətini formalaşdırıb. 2024-cü il növbədənkənar prezident seçkiləri xalqımızın ictimai-siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, Azərbaycan dövlətinin yeni respublika epoxasına daxil olması kimi mühüm tarixi prosesə start verəcək.

***Sevil MİKAYILOVA,***
***Milli Məclisin deputatı***



## Xalqın seçimi bəllidir

Ötən gün Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin genişləndirilmiş iclasında İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilib. İclasda həmçinin YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və YAP sədrinin müavini Əli Əhmədov prezidentliyə namizədin səlahiyyətli nümayəndələri təyin ediliblər. Cənab İlham Əliyevin prezidentliyə namizədliyi həm də xalqın qərarıdır. Bu, torpaqlarımızı düşməndən xilas edərək ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa edən, ölkəmizi qlobal aləmdə şöhrətləndirən, bir sözlə, Azərbaycanın bu gününü və sabahını işıqlandıran Prezident İlham Əliyevin haqqıdır.



Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, fevralın 7-nə təyin olunmuş prezident seçkiləri Azərbaycanın növbəti mühüm qələbəsi kimi qiymətləndirilməlidir. Nəzərə almaq lazımdır ki, prezident seçkiləri müstəqillik tariximizdə ilk dəfədir ki, ölkəmizin bütün ərazilərində keçirilir. Ona görə də bu seçkiləri Zəfər seçkisi adlandırmaqda haqlıyıq. Bu baxımdan növbədənkənar prezident seçkilərinin böyük əhəmiyyəti var. Bu gün Azərbaycan tarixdə heç zaman olmadığı qədər güclü və qüdrətlidir.

Deputatın sözlərinə görə, Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Xalqımız xoşbəxt və firavan yaşayışı naminə öz həmrəyliyini qoruyur. Bu seçkilərdə də xalq birliyinin şahidi olacağıq. Bu seçki ölkə vətəndaşlarının siyasi iradəsinin ifadəsi olmaqla yanaşı, həm də xalqımızın dövlət başçısına olan etimadının və inamının növbəti təzahürü kimi tarixə düşəcək. Öz liderinə səs verənlər həm də sanki Azərbaycanın gələcək inkişafına töhfə vermiş olacaqlar.

"Vətəndaşlarımızın Zəfər seçkisinə qatılmalarını təmin edən şanlı qələbəmiz məhz Prezident İlham Əliyevin uğurlu hərbi-siyasi gedişlərinin nəticəsidir. Ümumiyyətlə, Azərbaycanın qlobal aləmdə böyük nüfuz sahibi olması dövlət başçısının xalqın və dövlətin maraqlarını hər şeydən üstün tutması, bu istiqamətdə sərgilədiyi mövqeyi ilə sıx bağlıdır", - deyə Ceyhun Məmmədov qeyd edib.

Deputat həmçinin əlavə edib ki, bu seçkilər də demokratik təşkil olunacaq, prezidentliyə namizədlərə bərabər imkanlar yaradılacaq. Vətəndaşlar siyasi iradələrini sərbəst formada ifadə edəcək və istədikləri namizədə səs vermək imkanına malik olacaqlar. Seçkilərin növbədənkənar keçirilməsi heç bir işi məhdudlaşdırmır. Sadəcə olaraq, vətəndaşlar siyasi iradələrini vaxtından bir müddət əvvəl ifadə edəcəklər.

Ceyhun Məmmədov onu da deyib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin belə bir qərar verməsi xalqın siyasi dəstəyinə əminliyinin bariz göstəricisidir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Haqqı sevən xalq kimə səs verəcəyini yaxşı bilir

"2024-cü il fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək. Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra bütün ərazisində nə prezident, nə parlament, nə də bələdiyyə seçkilərini keçirmək mümkün olub".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, Azərbaycan 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror əməliyyatı nəticəsində separatçı rejimi darmadağın etdi. Separatçı qüvvələr Azərbaycanı tərk etdi və beləliklə, ölkəmizin bütün ərazisində suverenliyimiz tam bərpa olundu və üçrəngli bayrağımız hər yerdə şərəflə dalğalanmağa başladı. Ona görə növbədənkənar seçkilərin keçirilməsinin obyektiv səbəbi var. Bu, həm də Zəfər seçkisidir. Eyni zamanda xalqla iqtidarın gücünü bir daha göstərmək üçün imtahandır.

A.İsgəndərov vurğulayıb ki, Azərbaycanın tarixində ən ağrılı problem Dağlıq Qarabağ münaqişəsi olub. Separatçı rejimin, ona dəstək olan Ermənistanın işğalçı siyasəti, ən nəhayət, dünyanın nüfuzlu təşkilatlarının və böyük dövlətlərinin bir neçə üzlü sifəti göz önündə olub. Bütün bunları dərk etdikdən, yaşadıqdan sonra Azərbaycanın 44 günlük müharibədə qalib gəlməsi bu seçkini Zəfər seçkisi adlandırmağa əsas verir. Azərbaycanı bütövləşdirən, Şuşanı, Xankəndini və digər rayonları işğaldan azad edib xalqımıza qaytaran Ali Baş Komandan İlham Əliyevin formalaşdırdığı əsgər, bütünlükdə Azərbaycan xalqı seçkiyə gedərək iqtidara olan dərin məhəbbətini bir daha nümayiş etdirəcək.

Bu seçkinin həm də dünyaya bir mesaj olduğunu deyən deputat bildirib ki, təcrübəli və mübariz xalq olaraq dünyanı təlqin etməsək də, amma dünya təcrübəsindən istifadə edirik: "Bizim yolumuz haqq, ədalət yoludur. Bu yolun bünövrəsini Ümummilli Lider Heydər Əliyev qoyub. Ancaq bu gün həm də dünyaya göstərmək istəyirik ki, biz bir xalq olaraq ədaləti, haqqı sevirik və haqqı sevən xalq seçkidə kimə səs verəcəyini yaxşı bilir. Xalqın gözü tərəzidir. Xalq 30 il idi Qarabağın işğaldan azad olunması arzusu ilə yaşayırdı. Bu illərdə istəyimizə çatmaq üçün nə qədər qapılar döydük, nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər etdik. Amma çox təəssüflər olsun ki, nə bizə hə dedilər, nə də işğalçı və işğala məruz qalanın kim olduğunu dillərinə gətirdilər. Amma bu gün xalq birmənalı olaraq dünyaya bəyan edir ki, bu qələbənin qəhrəmanı Azərbaycan xalqı, Ali Baş Komandandır, onun yetişdirdiyi əsgərdir".

A.İsgəndərov qeyd edib ki, əslində, xalq seçimini 2003-cü ildən edib. Ümummilli Lider Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciətində deyirdi: "Mən ona özüm qədər inanıram". Xalq da inandı, səs verdi və bu 20 il ərzində Azərbaycanın uğurları göz qabağındadır: "Azərbaycan demokratik dövlətdir. Bu seçimlə bağlı bütün namizədlər üçün bərabər imkanlar yaradılacaq. Azərbaycan dövlətinin arzu və istəyi odur ki, xalqın seçimi həm də nümunə olsun. Hər dəfə Azərbaycanda seçkilər keçiriləndə həm ölkənin daxilində, həm də xaricində bizi istəməyən qüvvələrin böhtan kampaniyası başlayır. Amma bunun heç bir əhəmiyyəti yoxdur, biz öz uğurumuzdan, inkişafımızdan, Qarabağda gecə-gündüz davam edən quruculuq və bərpa işlərimizdən qalmayacağıq".

Bu seçkilərin Azərbaycan xalqının tarixinə mühüm seçki kimi düşəcəyinə əminliyini ifadə edən deputat vurğulayıb ki, ilk dəfə olaraq bütün Azərbaycan xalqı, o cümlədən işğaldan azad olunan torpaqlarımızdan 20 min seçici bu seçkidə iştirak edəcək. "Biz əminik ki, Azərbaycan xalqını qalib xalqlar sırasına çıxaran, Azərbaycan əsgərinin qəhrəmanlığını bütün dünyaya nümayiş etdirən, öz cəsarəti, qətiyyəti ilə hamını heyran edən və xalqını sevindirən İlham Əliyev yenidən dövlət başçısı seçiləcək. Beləliklə, Azərbaycan xalqının uğurlu inkişafı üçün daha geniş imkanlar açılacaq", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## YAP-ın namizədi xalqın namizədidir

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin dünən keçirilmiş genişləndirilmiş iclasında ölkə Prezidenti, partiyamızın Sədri İlham Əliyevin növbədənkənar prezident seçkilərində namizədliyinin irəli sürülməsi ictimaiyyət tərəfindən dərin razılıq və sevinclə qarşılanmışdır. Çünki cənab İlham Əliyev yalnız sıralarında 720 min nəfərdən çox üzvü birləşdirən YAP-ın deyil, bütün xalqımızın namizədidir. Buna görə YAP İdarə Heyətinin qərarı yüksək siyasi-ictimai dəyərə və ehtirama layiqdir.



Qarşıdan növbədənkənar prezident seçkiləri gəlir. Prezident İlham Əliyevin sərəncamı ilə növbədənkənar prezident seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilib. Mərkəzi Seçki Komissiyası tərəfindən də seçkilərin keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə reallaşdırılması üçün Təqvim Planı təsdiq olunub. Bu, xalqımızın Ulu Öndəri Heydər Əliyevin ilk dəfə Prezident seçildiyi 1993-cü ildən bəri Azərbaycanda demokratik şəraitdə keçiriləcək sayca 7-ci prezident seçkisi olacaq.

Seçkilərin növbədənkənar keçirilməsinə gəldikdə isə, bu, bütün dünyada qəbul olunmuş siyasi təcrübədir. Belə ki, seçkilər bəzi hallarda müəyyən səbəblərdən təxirə salınır, bəzi hallarda isə vaxtından əvvəl keçirilir. Seçkilər növbədənkənar keçiriləndə sadəcə seçicilər öz siyasi iradələrini vaxtından əvvəl ifadə edirlər. Azərbaycanın Seçki Məcəlləsi növbəti prezident seçkilərinin keçirilməsi ilə növbədənkənar prezident seçkilərinin keçirilməsi arasında hər hansı prosedur, yaxud müddət fərqi müəyyən etmir.

Böyük qürur hissi ilə qeyd etmək istərdim ki, sıralarında təmsil olunduğum YAP-ın İdarə Heyətinin respublikamızın siyasi həyatında böyük hadisə kimi dəyərləndirilən genişləndirilmiş iclasında Prezident İlham Əliyevin namizədliyinin irəli sürülməsi xalqımızın iradəsini ifadə edən tarixi qərardır. Xalqımızın bu siyasi qərar ətrafında səfərbər olmasının təməlində ötən 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın keçdiyi inkişaf yolu, qazandığımız möhtəşəm nailiyyətlər və Heydər Əliyev siyasi kursuna olan böyük inam dayanır.

20 il əvvəl, 2003-cü ilin prezident seçkilərində xalqımız ilk dəfə cənab İlham Əliyevə etimad göstərməklə inkişafa, quruculuğa, qüdrətli dövlətçiliyə səs vermişdi. Həmin vaxtdan ötən hər bir ilin yekunu Prezident İlham Əliyevin fəaliyyətinin uğurlu hesabatı kimi tariximizə həkk olunub. Hələ ilk dəfə Prezident seçilərkən andiçmə mərasimində cənab İlham Əliyevin Azərbaycanın gələcəyi və perspektiv planlarla bağlı söylədiyi fikirlər həyatda öz təcəssümünü tapıb. Dövlət başçısının verdiyi bütün sözlər həyata vəsiqə alıb.

20 ildə Azərbaycan böyük yüksəliş yolu keçib, modern dövlətə çevrilib, dünyanın həsəd apardığı inkişaf nümunələrinə imza atıb. Mühüm enerji və nəqliyyat layihələrini həyata keçirən, regionun tranzit-logistik qovşağına çevrilən, kosmik kluba daxil olan Azərbaycan əldə etdiyi bu kimi hazırda regionun aparıcı dövləti, dünyada isə söz sahibidir və beynəlxalq mövqelərimiz əhəmiyyətli dərəcədə güclənib. 20 ildə Azərbaycan iqtisadiyyatının bütün sahələri, o cümlədən regionlarının iqtisadi potensialı hərəkətə gətirilib, aparılan quruculuq işləri nəticəsində şəhər və rayonlarımızın siması dəyişib, ölkə vətəndaşlarının sosial rifahı əhəmiyyətli dərəcədə yüksəlib, neftdən gələn gəlir insan kapitalının inkişafına yol açıb. 20 ildə Azərbaycanda ümumi daxili məhsul 6,2 milyard manatdan 78,7 milyard dollara çatıb. ÜDM-in real həcmi isə 4 dəfə artıb.

Bütün bunlar Prezident İlham Əliyevin inkişaf konsepsiyasının nə qədər düzgün və səmərəli olduğunu göstərir. Bu, inkişafın Azərbaycan modelinin mükəmməl təqdimatıdır.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyinin ən möhtəşəm və tarixi hadisələri Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması, 2023-cü ilin sentyabrında isə Qarabağda milli suverenliyimizin təmin edilməsidir. Ümumiyyətlə, 2003-cü ildə Prezident səlahiyyətlərinin icrasına başladığı ilk gündən cənab İlham Əliyev Qarabağ məsələsində qətiyyətli və Azərbaycanın milli maraqlarını rəhbər tutan siyasət yürüdüb. Dövlətimizin başçısı ölkəmizin mənafelərinə zidd olan heç bir təşəbbüsü və təklifi qəbul etməyib, heç yaxına buraxmayıb.

Prezident İlham Əliyev sülh danışıqlarına sadiq olmaqla yanaşı, torpaqlarımızın müharibə yolu ilə işğaldan azad edilməsi imkanlarını da diqqət mərkəzində saxlayıb. Bu məqsədlə cənab Prezidentin xüsusi diqqəti və təşəbbüsləri ilə Azərbaycan Silahlı Qüvvələrinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırılıb. Və bu ordu 44 günlük Vətən müharibəsində İlham Əliyevin Ali Baş Komandanlığı ilə öz tarixi vəzifəsini layiqincə yerinə yetirərək torpaqlarımızı işğaldan azad etdi.

2023-cü ilin sentyabr ayında Prezident İlham Əliyev dövlətçiliyimizi şərəfləndirən növbəti tarixi uğura müəlliflik etdi. Dövlətimizin başçısının qətiyyəti, ordumuzun qəhrəmanlığı ilə Qarabağdakı erməni separatçılığı darmadağın edildi. Bununla da Prezident İlham Əliyev Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq kimi mənfur ideyanı tarixdən birdəfəlik sildi.

Bu xüsusda onu qeyd etmək yerinə düşər ki, qarşıdan gələn prezident seçkiləri Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq bütün torpaqlarımızın işğaldan azad edildiyi tarixi şəraitdə keçiriləcək. Bu faktın özü Prezident İlham Əliyevin Azərbaycana uğurlu rəhbərliyinin olduqca mühüm göstəricilərindən biridir.

Prezident İlham Əliyevin ötən 20 ildəki fəaliyyətinin daha bir şərəfli səhifəsi isə Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin bərpasıdır. Ötən 3 ildə bu istiqamətdə görülən işlərin sürəti və miqyası Prezident İlham Əliyevin vətən sevgisindən, milli təəssübkeşliyindən, qətiyyətindən və siyasi iradəsindən xəbər verir.

Dövlətimizin qarşısında yeni hədəflər dayanır. Qarabağ və Şərqi Zəngəzurun bərpasının sürətlə davam etdirilməsi, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü, iqtisadi inkişafın davamlılığı, dinamik və inklüziv cəmiyyətə nail olmaq, insan kapitalının inkişafı kimi məsələlər qarşıda dayanan milli vəzifələrdir.

Azərbaycan xalqı növbəti prezident seçkilərinə ötən 20 ilin möhtəşəm uğurları və qarşıda duran milli priorietlərlə gedir. Seçkilərin nəticəsini də bu uğurlar və bütövlükdə ötən 20 ilin reallıqları müəyyən edəcək. Ona görə əminliklə deyə bilərik ki, ötən prezident seçkilərində olduğu kimi, bu dəfə də vətəndaşlarımız öz müdrik seçimlərini edərək Azərbaycanın inkişafını, yüksəlişini təmin edən, bizi dünyada qalib xalq və dövlət kimi tanıdan siyasətə səs verəcəklər. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qarşıdakı illərdə də hərtərəfli inkişaf edəcək və inamla öz hədəflərinə çatacaq.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***



# MÖHTƏŞƏM 20 İL 2003 2023



# Qlobal və strateji layihələr müəllifi

Azərbaycanın əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş yeni neft-qaz strategiyası qlobal layihələrlə daha da zənginləşərək uğurla davam edir. Ölkəmiz son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə də bir sıra qlobal və strateji layihələr reallaşdırıb. Elə bir layihələr ki, onlar Avropanın enerji xəritəsini dəyişdirib.

2005-ci ilin mayında Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə Səngəçal terminalından ilk neft vuruldu. Növbəti ilin iyulunda isə üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində 1768 kilometr məsafə qət edən bu boru xətti tam sistem kimi istifadəyə verildi. Prezident İlham Əliyev Ceyhan şəhərində keçirilən açılış mərasimində bu hadisənin mühüm əhəmiyyət daşıdığını qeyd edərək demişdir: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

Belə də oldu. Həm də BTC təkcə Azərbaycanın deyil, bütün regionun sosial-iqtisadi həyatında önəmli rol oynayan bir amilə çevrildi. Bu gün BTC regionun neft ixracı arteriyasıdır. İstismara verildiyi vaxtdan cari il sentyabr ayının sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 554 milyon ton (4,2 milyard barel) xam neft nəql edilib və həmin neft həcmləri Ceyhanda 5482 tankerə yüklənərək dünya bazarlarına göndərilib. BTC-nin ümumilikdə 4 milyard barel neft ixracına nail olması əlamətdar bir uğur kimi bu il yanvarın 18-də qeyd edilib. Cari ilin ilk üç rübü ərzində BTC vasitəsilə ixrac olunmuş təqribən 23 milyon ton (təxminən 171 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 238 tankerə yüklənib və dünya bazarlarına yola salınıb. Hazırda BTC əsasən AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmərlə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

Ölkəmiz artıq dünyada qaz ixracatçısı kimi də tanınır. Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından çıxarılan mavi yanacaq 2006-cı ilin sonundan Cənubi Qafqaz Boru Kəməri ilə Gürcüstana, 2007-ci ilin ortalarından isə Bakı-Tbilisi-Ərzurum kəməri ilə Türkiyəyə ixrac edilir. 2018-ci ildə Azərbaycanın təşəbbüsü və liderliyi ilə çəkilən "Cənub qaz dəhlizi"nın rəsmi açılışı oldu. Bu gün Azərbaycan Avropanın qaz təchizatında mühüm rol oynayır. Belə ki, ölkəmiz qoca qitənin enerji təminatında strateji və etibarlı tərəfdaşa çevrilib. Enerji əməkdaşlığının yeni mərhələsi üçün 2022-ci ildə Avropa və digər tərəfdaş ölkələrlə energetika sahəsində strateji əməkdaşlığa dair memorandum və saziş imzalanıb. Həmin sənədlər qaz nəqlinin artırılmasını, bərpa olunan mənbələrdən elektrik enerjisinin və maye hidrogenin Avropaya ixracını, habelə ötürmə üçün infrastrukturun qurulmasını nəzərdə tutur.

Azərbaycanın qaz ixracı coğrafiyası getdikcə genişlənir. Bu günlərdə Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı ilə ixrac marşrutlarımız bir qədər də şaxələndi. İndi Azərbaycandan Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya ilə yanaşı, Serbiya da qaz alır. Yaxın zamanlarda bu cərgəyə Macarıstanın, Albaniyanın və digər ölkələrin də qoşulacağı gözlənilir.

Prezident İlham Əliyev ötən illər ərzində mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. İndi ölkəmiz qlobal enerji keçidi çağırışlarına uyğun olaraq xarici investorlarla əməkdaşlıq çərçivəsində bərpaolunan enerji mənbələrinin səmərəli istehsalını təşkil edir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyası bir neçə ay əvvəl müvəffəqiyyətlə istifadəyə verilib. Səudiyyə Ərəbistanı Krallığının "Acwa Power" şirkəti ilə külək enerjisinin istehsalı layihəsi uğurla icra edilir. İşğaldan azad olunmuş Cəbrayıl rayonunda bp şirkəti ilə birlikdə 240 meqavatlıq Günəş Elektrik Stansiyasının tikintisi planlaşdırılır. Digər bir sıra enerji şirkətləri ilə birgə həm quruda, həm də dənizdə günəş və külək enerjisi istehsalı layihələrinin icrası nəzərdə tutulur.

Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərimizi "yaşıl enerji" zonası elan edib. Naxçıvan Muxtar Respublikasında da bərpaolunan enerji layihələri həyata keçirmək üçün imkanlar var. Bu baxımdan Xəzərin küləyi də çox dəyərlidir. Prezidentimiz növbəti 5-6 ildə 10 qiqavat həcmində günəş və külək enerjisi istehsal etməyin planlaşdırıldığını bildirib. Artıq külək və günəş enerjisi layihələrinə dair müqavilə və anlaşma memorandumları imzalanıb. Bu, Azərbaycana yanacaq enerjisindən bərpaolunan enerjiyə rahat keçid imkanı verəcək. Beləliklə, Avropadakı istehlakçılar "yaşıl enerji" ilə də təmin ediləcək.

Xatırladaq ki, keçən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Prezidentimizin sözləri ilə desək, bu, Gürcüstanı, Azərbaycanı, Rumıniyanı və Macarıstanı daha sıx bağlayan bir layihə olacaq.

Bununla yanaşı, ənənəvi enerji də arxa plana keçmir. Prezident İlham Əliyevin bu sahədəki siyasəti Azərbaycanı regionun ən işıqlı ölkəsinə çevirdi. Vaxt var idi ki, nəinki kəndlərimizdə, hətta şəhərlərimizdə işıq fasilələrlə verilirdi. 2004-2022-ci illərdə istismara verilən 60-dan çox yeni elektrik stansiyası yurdumuzu başdan-başa çıraqban edib. Elektrik enerjisinin 76 faizi regionlarda istehsal olunur. Bir zamanlar elektrik enerjisini idxal edən Azərbaycan indi onun ixracatçısıdır.

Qazlaşdırma bir çox digər ölkələrin qibtə edəcəyi səviyyədədir. Qaz xətləri hətta sovet dönəmində mavi yanacaq almayan ən ucqar dağ kəndlərinədək çatıb.

Bütün bu istiqamətlərdə yeni addımlar atılır, yeni layihələr həyata keçirilir və onlar da öz növbəsində ölkəmizin sosial-iqtisadi inkişaf göstəricilərini yüksəldir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik"

## İlham Əliyev 20 illik prezidentliyi dövründə bu fəaliyyət kredosuna sadiq olduğunu dəfələrlə sübut edib

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi gündən həyata keçirməyə başladığı və bugünəcən davam etdirdiyi geniş sosial-iqtisadi islahatlarının əsas hədəfi ölkənin iqtisadi inkişafını sürətləndirməklə vətəndaşların sosial rifahını davamlı yaxşılaşdırmaqdır. Əminliklə demək olar ki, islahatların hər iki istiqamətdə aparılması nəticəsində artıq güclü Azərbaycan və sosial güvənli vətəndaş cəmiyyəti yaranmışdır.




2003-cü ildən bu ilə qədər Azərbaycan iqtisadiyyatı dünya üzrə rekord səviyyədə olmaqla 3 dəfə artmışdır. İqtisadi inkişaf, ölkənin maliyyə imkanlarının güclənməsi dövlətə vətəndaşın sosial problemlərinin həllinə geniş imkan yaratmışdır. Nəticədə hər il sosial sahəyə daha çox vəsait ayrılır.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan dövlətinin siyasətində vətəndaşın sosial müdafiəsi önəmli rol oynayır: "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik".

Bu sahədə son 20 ildə görülən işlər dövlət başçısının sözü ilə əməlinin bir olduğunu təsdiq edir. Belə ki, həmin dövrdə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərclərində 20 dəfədən çox artım qeydə alınıb. Minimum əməkhaqqı 38 dəfə artaraq 345, orta aylıq əməkhaqqı 12 dəfə artaraq 925,3 manata çatıb. Sosial müdafiə sistemində pensiya ödənişlərinin əhəmiyyətli rola malik olması nəzərə alınaraq 2006-cı ilin əvvəllindən ölkədə qabaqcıl dünya təcrübəsinə uyğun müasir sığorta-pensiya modelinə keçidin təmin edilməsi hesabına pensiya təminatında müsbət irəliləyiş əldə edilib.

Sosial müdafiənin təminatında və islahatların aparılmasında hüquqi bazanın mühüm əhəmiyyəti var. Bu məqsədlə dövlət başçısı hər bir vətəndaşın sosial müdafiəsini özündə ehtiva edən mükəmməl qanunvericilik bazasının yaradılmasına nail olub. Dövlət başçısının 2014-cü il 4 noyabr tarixli sərəncamı ilə təsdiq olunan "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası" bu sahədə mühüm dönüşün təməlini qoyub. Təsdiq olunan konsepsiyanın tələblərinə uyğun olaraq həmin sistemin yeni çağırışlara uyğun təkmilləşdirilməsi, layiqli pensiya təminat sisteminin qurulması istiqamətində mühüm addımlar atılıb.

Məlumdur ki, sosial sektor cəmiyyətdə həssas sahə sayılır. Bu üzdən mövcud şəraitə görə, qanunvericilik bazasının daim təkmilləşdirilməsinə ehtiyac var. Ona görə də dövlət başçısı tərəfindən hər il müvafiq sərəncamlar imzalanmaqla minimum pensiyalar mütəmadi artırılır, həmçinin hər ilin əvvəlində pensiyaların və fərdi hesabdakı pensiya kapitalı indeksləşdirilir. Bu cür tədbirlər sayəsində ötən 20 ildə minimum pensiya 14 dəfə artaraq 280, orta aylıq pensiya 18 dəfə artaraq 435, yaşa görə orta aylıq pensiya 19 dəfə artaraq 446, əlilliyə görə orta aylıq pensiya 14 dəfə artaraq 366, ailə başçısını itirməyə görə orta aylıq pensiya 19 dəfə artaraq 408 manata çatıb.

Dövlət vətəndaşın pensiya təminatını yaxşılaşdırmaq üçün ayrılan vəsaitin məbləğini artırmağa xüsusi önəm verir. Bu məqsədlə pensiya üzrə ödənilən illik vəsaitlərin məbləği 30 dəfədən çox artaraq 5 milyard 907 milyon manata yüksəlib. Son bir ildə pensiyalar üzrə ödənişlərə ayrılan illik vəsaitdə 1 milyard manata yaxın, ötən 5 ildə isə 2,4 milyard manat və ya 70 faiz artım olub. Ayrılan vəsaitin artması pensiyaların yüklənməsində önəmli rol oynayıb. Belə ki, 2003-cü ildə orta aylıq pensiya məbləği pensiyaçılar üçün yaşayış minimumundan 2 dəfə aşağı olduğu halda, hazırda bu məbləğ 435 manat olmaqla pensiyaçılar üçün yaşayış minimumunu 199 manat və ya 2,2 dəfə üstələyir.

Sosial müdafiə sahəsinin istiqamətləri geniş olduğu üçün hər bir vətəndaşın mənafeyi nəzərə alınmalıdır. Humanizm və şəffaflığın da bu sahədə təmin edilməsi vacibdir. Bu məqsədlə dövlət başçısı tərəfindən imzalanan fərman və sərəncamlar ötən 20 il ərzində 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, eləcə də pensiya təminatında humanist yanaşmalarının tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb. Dövlət başçısının şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi qayğısının təzahürü kimi 2007-ci ilin əvvəlindən şəhid ailələri, 2008-ci ilin sentyabrından müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü təyin edilib. Bu təqaüdlərin məbləği vaxtaşırı olaraq artırılır. Belə ki, ötən dövr ərzində şəhid ailələri üçün təqaüd 6, müharibə ilə əlaqədar əlilliyi olanların orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) təqaüdü 5,6, orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə (II dərəcə) əlilliyi olanların təqaüdü 5,7, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə (III dərəcə) əlilliyi olanların təqaüdü 6,6 dəfə artırılıb. Həmin kateqoriyadan olan şəxslər aylıq pensiya və müavinətlərlə də təmin edilir. Dövlət başçısının daha bir qayğısı kimi həmin kateqoriyadan olan vətəndaşlarla bağlı xüsusi proqramlar da icra olunur. Məsələn, 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların ailələrinə və həmin tarixədək hərbi xidmət zamanı aldığı xəsarət və xəstələnməsi ilə bağlı əlilliyi müəyyənləşmiş şəxslərə və ya onların vərəsələrinə birdəfəlik ödəmələr verilməsi proqramları icra edilir.

Prezident İlham Əliyevin son 5 ildə imzaladığı sənədlərlə daha 10 yeni sosial ödəniş növü - müharibə veteranlarına, birinci dərəcə əlilliyi olanlara və əlilliyi olan 18 yaşadək şəxslərə qulluq edənlərə, Vətən müharibəsi qəhrəmanlarına, işləməyən pensiyaçı elmlər doktorlarına və fəlsəfə doktorlarına Prezidentin aylıq təqaüdü, uşaqları övladlığa götürən şəxslərə müavinət, himayədar ailələr üçün müavinət və s. təsis olunub.

Müxtəlif səbəblər üzündən bir sıra ailələr öz güzəranını tam təmin edə bilmir. Dövlət onların da qayğısına qalır. Prezident İlham Əliyevin 2006-cı ildə təsdiq etdiyi dövlət sosial yardım proqramı icra olunur. Ötən dövrdə aztəminatlı ailələrin ünvanlı sosial yardım sistemi təkmilləşdirilərək şəffaflıq təmin edilib. Qanunvericilikdə edilən dəyişikliklər sayəsində proqramın əhatə dairəsi genişlənib, sosial yardımın təyinat şərtləri xeyli sadələşdirilib.

Ölkədə son 20 ildə aparılan sosial islahatların inkişaf dinamikası göstərir ki, Azərbaycan vətəndaşının rifahı ildən-ilə yaxşılaşır. Ümumilikdə 4 milyondan çox vətəndaşı əhatə edən islahatların hər biri üzrə illik əsasda ayrılan əlavə vəsaitlərin ümumi məbləği 7 milyard manata yaxındır. Bu islahatlar sayəsində 2018-2023-cü illərdə ölkəmizdə minimum pensiya 2,5, minimum əməkhaqqı 2,7, orta aylıq pensiya 2,1, yaşa görə orta aylıq pensiya 2, sosial müavinət və təqaüd ödənişləri 5, median əməkhaqqı 2,2, əməkhaqqı fondu 2,6 dəfə, orta aylıq əməkhaqqı 70, işsizliyə görə sığorta ödənişlərinin orta aylıq məbləği 52 faiz artıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# Fransa Cenevrə Bəyannaməsinin tələblərini yerinə yetirməlidir

**BMT-nin Cenevrə şəhərində yerləşən Baş Qərargahında Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə keçirilmiş "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" beynəlxalq konfransı və bu konfransda səsləndirilən fikirlər, edilən çağırışlar, qəbul olunan bəyannamə dünyanın bütün KİV-inin diqqət mərkəzindədir. Konfransın dekabrın 14-də keçirilməsi təsadüfi deyildi.**

Tarixin səhifələrini vərəqləyəndə görürük ki, BMT Baş Assambleyası 14 dekabr 1960-cı ildə 1514 (XV) saylı qətnamə üzrə müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında bəyannamə qəbul edib. Həmin tarix hər il dünyada "dekolonizasiya günü" kimi qeyd olunur.

Cenevrədə keçirilən konfransda ABŞ, Böyük Britaniya, Fransa, Türkiyə, İsveçrə, Əlcəzair, Pakistan, Serbiya, Qətər, Seneqal, Kamerun, Vyetnam, Qəmər Adaları İttifaqı, Qvadelupa, Fransız Qvianası, Yeni Kaledoniya, Korsika, Martinika, Fransız Polineziyası, Valis və Futuna, Solomon adalarından, İslam Əməkdaşlıq Təşkilatı və BMT-nin Qadınlara qarşı Zorakılığın Ləğv edilməsi üzrə Komitəsindən 50-yə yaxın nümayəndə, eləcə də insan hüquqları və dekolonizasiya üzrə ixtisaslaşan QHT-lərin rəhbərləri, xarici media təmsilçiləri iştirak ediblər.

İnsan hüquqlarının müdafiəçisi, QHT rəhbəri, Böyük Britaniya vətəndaşı Muhammad Rabbani bu konfransda iştirak etmək üçün İsveçrəyə gəlsə də, polis tərəfindən saxlanılıb. Polis saxlanmanın sifarişinin Fransadan gəldiyini bildirib. Hüquq müdafiəçisi Rabbaninin özünün və vəkilinin haqlı tələblərinə baxmayaraq, İsveçrə polisi onu buraxmayıb. Məntiqsizliyə bir bax, özünü azadlıq carçısı adlandıran Fransa özü azadlıqdan qorxur. Hüquq müdafiəçisini həbs etdirir, müxtəlif bəhanələr gətirərək Azərbaycanı təmsil edən jurnalisti ölkəsinin ərazisinə buraxmır. Bax budur, Fransanın iç üzü. Hüquq müdafiəçisindən, jurnalistdən qorxan bir ölkə indi gəlib Ermənistanı "müdafiə" etmək istəyir.

BMT-nin Cenevrə ofisində Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda keçirilən beynəlxalq konfrans 2023-cü il üzrə kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləməyə həsr olunmuş IV beynəlxalq tədbir idi. Konfransda çıxış edən Fransanın keçmiş və indiki koloniyalarından gələn təmsilçilər rəsmi Parisin bu ölkələrdə hələ də davam etdirdiyi yeni kolonializm siyasətinin ağır fəsadları barədə iştirakçılara ətraflı məlumat veriblər. Çıxışlarda xüsusi olaraq vurğulanıb ki, Fransa keçmiş müstəmləkələrinin daxili işlərinə kobud şəkildə müdaxilə edir, bu ölkələrdə stabilliyin pozulması siyasəti həyata keçirir. Hazırda müstəmləkə altında saxladığı ölkələrdə fundamental insan hüquqlarını kobud şəkildə pozur, bu xalqların təbii sərvətlərini qanunsuz olaraq istismar edir. Təbii ehtiyatları zəngin olan bu ölkələrin xalqları materik Fransasından qat-qat çətin şəraitdə yaşayır, işsizlik və yoxsulluq səviyyəsi ən yüksək həddədir. Fransanın bu ərazilərdə həyata keçirdiyi nüvə sınaqları, uranın zənginləşdirilməsi istiqamətində fəaliyyəti əhalinin səhhətində ciddi fəsadlar yaradır. Süni şəkildə yerli xalqların assimilyasiya edilməsi siyasəti və qeyri-qanuni miqrantların bu ərazilərə köçürülməsi davam etdirilməklə yerli xalqların müstəqillik uğrunda mübarizəsinə zərbə vurmağa səy göstərilir.



Rəsmi Bakı XXI əsrdə dünyada kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Bandunq Konfransından 70 il keçsə də, təəssüf ki, hələ də yer üzündə kolonializmi davam etdirən ölkələr mövcuddur. Belə ölkələrdən biri və birincisi özünü dünyaya azad, demokratik bir ölkə kimi göstərməyə çalışan Fransadır. Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətində saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törədib. Özü də sivil dünyanın gözü qarşısında.

XX əsrdə 30 il ərzində Fransız Polineziyasında Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilib. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqları tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatlar haqlı olaraq tələb edirlər ki, nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməli və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir. Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insan Fransa dövləti tərəfindən qətlə yetirilib. Buna görə ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Fransız ordusunun zaman-zaman törətdiyi qətliamların ağrı-acılarını Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də hiss etməkdədir.

Fransa həm də dünyada ən çox mina istifadə edən ölkədir. Fransız hərbçilər Əlcəzair ərazisində 5 milyondan artıq mina basdırmışdılar. Buna görə də Azərbaycan kimi Əlcəzair də dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələr sırasındadır. Bu qara siyahıda Fransadan sonra onun yaxın müttəfiqi Ermənistan gəlir. Ermənistanın Azərbaycan ərazilərində basdırdığı minalar nəticəsində təkcə son 3 ildə 340-a yaxın Azərbaycan vətəndaşı həyati zərbə alıb. Bu iki ölkəni bir-birinə belə sıx bağlayan səbəblərdən biri də hər ikisinin mina terrorçusu olmasıdır. Fransa Ermənistanın, Ermənistan da Fransanın təcrübəsini öyrənir.

BMT-nin Cenevrə ofisində "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda keçirilən beynəlxalq konfransın sonunda yekun bəyannamə qəbul olunub. Bəyannamədə Fransanın illərdən bəri müxtəlif ölkələrdə davam etdirdiyi neokolonializm siyasəti qətiyyətlə pislənilib.

Cenevrədə keçirilən toplantının iştirakçıları gələn il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası - COP29-a Azərbaycanın evsahibliyi etmək missiyasını da dəstəkləyiblər. Bu uğura görə Azərbaycan xalqını təbrik ediblər. Onlar əminliklə qeyd ediblər ki, Azərbaycan bu qlobal miqyaslı və planetimizin gələcəyi üçün vacib olan hadisə çərçivəsində həm qlobal istiləşmə, həm də müstəmləkəsizləşdirmə çağırışlarını nəzərə alacaq.

"Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda keçirilən konfransın iştirakçıları BMT-nin bu şəhərdəki ofisi qarşısında dinc aksiya keçiriblər. Onlar Fransa müstəmləkəçiliyinə son qoymaq uğrunda apardıqları mübarizələrini axıra qədər qətiyyətlə davam etdirəcəklərini bəyan ediblər.

Konfrans iştirakçıları onlara göstərdiyi dəstəyə və diqqətə görə Azərbaycan Prezidenti İlham Əliyevə, eləcə də Bakı Təşəbbüs Qrupunun üzvlərinə minnətdarlıqlarını ifadə ediblər

Fransa beynəlxalq konfransda qəbul olunan bəyənnamədən irəli gələn haqlı tələblərdən və səsləndirilən dəyərli fikirlərdən ibrət dərsi götürməli, insanlığa zidd olan çirkin əməl və hərəkətlərdən əl çəkməlidir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Cenevrə konfransında Fransa müstəmləkəçiliyinə qarşı mütəmadi iclasların keçirilməsi qərara alınıb






**Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə BMT-nin Cenevrə ofisində keçirilən beynəlxalq konfransda iştirak edən Fransa müstəmləkələrində müstəqillik uğrunda mübarizə aparan siyasi partiyaların rəhbər şəxsləri ayrıca iclas keçirərək, bir sıra məsələlər barədə razılığa gəliblər.**

"Report" xəbər verir ki, "Neokolonializm: İnsan hüquqları, Sülh və Təhlükəsizlik" adlı beynəlxalq konfrans çərçivəsində Cenevrədə bir araya gəlmiş Fransız Qvianası (MDES), Martinik (MODEMAS və PALİMA), Korsika (Azad Korsika), Qvadelupa (ANG, CİPPA, CİPN, FKNG, KSG, MİR-Qvadelupa və UPLG), Fransız Polineziyası (özləri ölkələrini Ma'o Nuii adlandırır) (TAVİNİ Huiraatiraa) və KANAKY (Yeni Kaledoniya) (FLNKS, MJKF) ölkələrindən olan millətçi və müstəqillik uğrunda mübarizə aparan təşkilatlar tam suverenliyə dair siyasi məqsədlərinə çatmaq üçün birgə addımların atılması imkanlarının gücləndirilməsi məqsədilə ölkələrində cari siyasi vəziyyətlərinə dair fikir mübadiləsi apardılar.

Tərəflər beynəlxalq, regional və milli səviyyədə təşkilatlanmış mübarizə aparmağı qərara aldılar. İştirakçılar öz xalqlarına münasibətdə birgə siyasi həmrəylik fəaliyyətlərini birləşdirmək məqsədilə mütəmadi əsasda iclasların keçirilməsinə dair razılığa gəldilər.

İlk iclasda siyasi gündəlik müəyyənləşdiriləcək.

# Kaledoniya Birliyinin sədri Makrona açıq məktub göndərib, tələblər irəli sürüb



Kaledoniya Birliyinin sədri, FNKLS-nin mətbuat katibi Daniel Qoa Fransa Prezidenti Emmanuel Makrona və fransalı nazirlərə açıq məktub göndərib.

APA xəbər verir ki, 10 səhifəlik məktubda 1853-cü ildən Fransanın Yeni Kaledoniyada hökmranlıq etdiyi vurğulanır.

Bildirilir ki, Fransa hökuməti tərəfindən Kaledoniyaya məqsədli şəkildə köçürülən insanlar onları xalq kimi tanımır:

*"Sizin üçün demokratiya seçki hüququdur, bizim üçün isə demokratiya ənənəvi qəbilə dəyərlərinə hörmət edilməsidir.*

*Fransa bizim üçün nümunə götürüləcək mənbə deyil. Sizin siyasətiniz bizim məhvimizə hesablanıb. Amma siz bizi məhv edə bilməyəcəksiniz. Vaxt gələcək biz sizin qarşınızda olacağıq.*

*Bizim ərazilərin dekolonizasiya olunmasına dair 1957-ci ildə imzaladığınız sənəddə götürdüyünüz öhdəliklərə əməl eləmirsiz.*

*Fransa prezidenti bir şeyi deyir, amma tamamilə əksinə addımlar atır.*

*Demokratiya qeyri-qanuni işğal etdiyiniz ölkəni tərk etməyi tələb edir".*

Məktubda o da vurğulanır ki, dekolonizasiya fundamental insan hüququdur, bu, ədalət, insanlıq və demokratiyanın tələbidir: *"Fransa Sakit Okean regionunda Yeni Kaledoniya, Fransız Polineziyası, eləcə də Vallis və Futunasız heç nədir və Fransa heç bir zaman Okeaniyada qüvvə olmayacaq. Çünki bu ölkələr sizin deyil.*

*Siz güclə bizim ictimaiyyətimizi dəyişməyə çalışırsınız. Xatırladaq ki, sizin müstəmləkəçiliyiniz qətllər, xəyanətlər, talanlar, oğurluq, bizə qarşı hörmətsizlik, əhalimizin köçürülməsi, azadlığımızın alınması, məcburi qovulmağımız və bizi məhv edən gətirdiyiniz xəstəliklər vasitəsilə reallaşdırılıb.*

*Fransa təbii sərvətlərimizi talan edib, baha qiymətə satır".*

Açıq məktubda Fransaya qarşı tələblər də irəli sürülüb:

*"Ləyaqətimizi özümüzə qaytarın. Çünki bu sizin fəxr etdiyiniz insan hüquqlarının tələbidir.*

*Bizə azadlığımızı qaytarın. Çünki bu insanlığın tələbidir.*

*Bizi dekolonizasiya edin. Çünki bu tarixi ədalətin bərpa edilməsidir".*

## *Said Omar Said Ali:* "Fransa Mayot adasını tərk etməlidir"



**"Fransa işğal siyasətini bu gün də davam etdirir. Qəmər Adaları İttifaqına məxsus Vətənim Mayot adasının hələ də Fransanın nəzarəti altında olması bunun ən bariz nümunəsidir.**

**Fransa Mayot adasından çıxıb getmək istəmir. Buna son qoyulmalıdır və Fransa Mayotdan getməlidir".**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Qəmər Adaları xarici işlər nazirinin müşaviri Said Omar Said Ali deyib.

BMT-nin, İslam Əməkdaşlıq Təşkilatının və bir çox başqa beynəlxalq təşkilatların Mayot adası ilə bağlı çoxsaylı qətnamə və qərarlarını xatırladan Said Omar Said Ali bildirib ki, Fransa bu sənədlərə məhəl qoymur. Rəsmi Paris Qəmər Adaları sakinləri arasında nifaq salmaqda, düşmənçilik yaratmaqda davam edir. Fransa Mayot adasını tərk etməli və bu vəziyyətə son qoymalıdır.

"Mayot adasının azadlığı uğrunda mübarizəmizi davam etdirəcək, adanı azad edəcəyik", - deyən S.O.Said Ali Mayotun azadlığı ilə bağlı mövqelərinin qəti olduğunu vurğulayıb.

## *Karlil KORBƏN:* "Polineziyanın azadlığı uğrunda mübarizəmizi davam etdirəcəyik"

"Fransanın dənizaşırı ərazilərlə bağlı əsas siyasəti müstəmləkə təsirini mümkün qədər davam etdirməkdir. Fransız Polineziyası 2013-cü ildə öz azadlığını elan edib və bu, Birləşmiş Millətlər Təşkilatı tərəfindən də tanınıb".



Bu fikirləri AZƏRTAC-a müsahibəsində BMT-nin dekolonizasiya komitəsinin eksperti, Fransız Polineziyasından olan Karlil Korbən deyib.

O bildirib ki, Polineziyanın azadlığı BMT tərəfindən tanınsa da, Fransa bunu qəbul etmək istəmir. Rəsmi Paris Polineziyanın özünüidarə hüququnu qəbul etdiyini rəsmi şəkildə BMT-yə bildirməli idi. Ancaq rəsmi Paris bu günə qədər bunu etməyib. Bu, müstəmləkəçiliyin yeni forması - neokolonializmdir.

"Biz bu istiqamətdə mübarizəmizi davam etdirəcəyik. Fransa Polineziyanın müstəqilliyini rəsmi qəbul edənə qədər fəaliyyətimizi əzmlə davam etdirəcəyik", - deyə BMT-nin dekolonizasiya komitəsinin eksperti vurğulayıb.

# Komando bölmələri ilə taktiki-xüsusi təlim keçirilib



Cari ilin hazırlıq planına uyğun olaraq komando bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ssenariyə əsasən, "Həyəcan" siqnalı ilə qaldırılan bölmələrə təxribat törətməyə cəhd edən şərti düşmən qruplaşmasının zərərsizləşdirilməsi üzrə tapşırıqlar verilib. Ərazinin vizual müşahidəsi və hava kəşfiyyatının aparılması ilə şərti düşmən obyekti qiymətləndirildikdən sonra onun hərbi texnikası pusquya salınıb, qruplaşmanın üzvləri ələ keçirilib.

Meşəlik ərazilərdə keçirilən taktiki-xüsusi təlim zamanı qarşıya qoyulan bütün tapşırıqlar yüksək peşəkarlıqla icra edilib.

# Mühəndis-istehkam bölmələri tərəfindən il ərzində 940 mina zərərsizləşdirilib







Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində azad edilmiş ərazilərimizdə cari ilin dekabrın 1-dən 12-dək olan müddət ərzində 134 hektaradək ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bundan başqa, təxliyə yollarının daim işlək vəziyyətdə saxlanılması, avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə qeyd olunan müddət ərzində 1069 metr yol qar örtüyündən təmizlənib, 260 metr yeni təminat yolları mühəndis-istehkam bölmələri tərəfindən çəkilib.

Azad edilmiş ərazilərdə 2023-cü il ərzində mühəndis-istehkam bölmələri tərəfindən ümumilikdə 6863 hektar ərazidən 234 ədəd piyada əleyhinə, 706 ədəd tank əleyhinə mina və 1405 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq zərərsizləşdirilib. Həmçinin 1730 metr yol qar örtüyündən təmizlənib, 13660 metr yeni təminat yolları çəkilib.

Mina təmizlənmə işlərində əsas səylər azad edilmiş ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Qarabağ iqtisadi rayonunda aşkar olunmuş mina və partlamamış döyüş sursatlarının bir qismi Ağdərə rayonunun "Gödəkburun" təlim mərkəzində partlatma və yandırma üsulları ilə məhv edilib.

Media nümayəndələri mina və partlamamış döyüş sursatlarının məhv edilmə prosesini izləyiblər.

Azad edilmiş ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər plana uyğun olaraq davam etdirilir.

# 2024 QADAĞAN EDİLMİŞ SİYAHI ÜMUMDÜNYA ANTİDOPİNQ MƏCƏLLƏSİ

## 1 YANVAR 2024-CÜ İLDƏN ETİBARƏN QÜVVƏYƏ MİNİR

**Giriş**

*Qadağan Edilmiş Siyahı,* Ümumdünya Antidopinq Proqramının bir hissəsi olan, tətbiqi məcburi Beynəlxalq Standartdır.

*Siyahı ÜADA*-nın təşəbbüsü ilə geniş bir məsləhətləşmə prosesindən sonra hər il yenilənir. Nəzərdə tutulmuş *Siyahı* 1 yanvar 2024-cü ildən etibarən qüvvəyə minir.

*Qadağan Edilmiş Siyahının* rəsmi mətni *ÜADA* tərəfindən hazırlanır, İngilis və Fransız dillərində nəşr olunur. İngilis və Fransız versiyaları arasında hər hansı bir mübahisəli məsələlər yaranarsa, İngilis dilində olan versiyaya üstünlük verilməlidir.

Aşağıda bu *Qadağan Edilmiş Maddə və Üsullar Siyahısında* istifadə olunan bəzi terminlər qeyd edilmişdir.

***Yarış Müddətində Qadağan Edilmişdir***

Müəyyən bir idman növü üçün *ÜADA* tərəfindən təsdiq edilmiş digər müddət təsdiq edilmədikdə, *Yarış Müddəti* - İdmançının iştirak edəcəyi *Yarışdan* əvvəlki bir gün saat 23:59-dan başlayan və Yarışın və həmin Yarışla əlaqədar nümunə toplanması prosesinin bitdiyi anadək olan müddətdir.

Hər zaman ***Qadağan Edilmişdir***

Bu o deməkdir ki, *Məcəlləyə* uyğun olaraq, maddə və ya üsul *Yarış Müddətində və Yarışdan Kənar Müddətdə* qadağan edilmişdir.

***Xüsusi*** **və qeyri-*Xüsusi***

*Ümumdünya Antidopinq Məcəlləsinin* 4.2.2-ci maddəsinə uyğun olaraq, "10-cu maddənin tətbiqi məqsədləri üçün, *Qadağan Edilmiş Siyahıda* qeyd olunmuşlar istisna olmaqla, bütün Qadağan *Edilmiş Maddələr Xüsusi Maddələr* hesab olunacaq. Qadağan edilmiş Siyahıda konkret olaraq *Xüsusi Üsul* kimi qeyd olunmayan heç bir *Qadağan Edilmiş Üsul Xüsusi Üsul* ola bilməz". Maddənin şərhinə əsasən, "4.2.2-ci maddədə qeyd olunan *Xüsusi Maddələr və Üsullar* heç bir şəkildə digər dopinq maddələrindən və ya üsullarından az əhəmiyyətli və ya təhlükəsiz hesab edilməməlidir. Sadəcə, bunların *İdmançı* tərəfindən idman göstəricilərinin artırılması məqsədindən fərqli məqsədlər üçün qəbulu və ya istifadəsi ehtimalı yüksək olan maddələr və üsullardır".

***Asılılıq Yaradan Maddələr***

*Məcəllənin* 4.2.3-cü maddəsinə əsasən, *Asılılıq Yaradan Maddələr,* idman kontekstindən kənarda cəmiyyətdə tez-tez sui-istifadə edildikləri üçün Xüsusi Maddələr hesab olunurlar. *Asılılıq Yaradan Xüsusi Maddələr* bunlardır: cocaine, diamorphine (heroin), methylenedioxymethamphetamine (MDMA/ekstazi tetrahydrocannabinol (THC).

## S0 TƏSDİQ EDİLMƏMİŞ MADDƏLƏR

**HƏR ZAMAN QADAĞAN EDİLMİŞDİR**
(YARIŞ MÜDDƏTİNDƏ VƏ YARIŞDAN KƏNAR MÜDDƏTDƏ)
Bu sinfə aid bütün maddələr
*Xüsusi Maddələrə* aiddir.

İstənilən farmakoloji maddə *Siyahının* müvafiq hissələrində göstərilmədiyi və istənilən dövlət səhiyyəsini tənzimləyici təşkilat tərəfindən insanlarda terapevtik məqsədlərlə istifadə üçün yararlı olmasını təsdiqləyən qərar mövcud olmadığı hallarda (yəni, klinikaya qədər və ya kliniki hazırlıq mərhələsində olan, yaxud da istifadəsi dayandırılan, həmçinin nümaiş tipli dərman vasitələri, yalnız baytarlıq xidmətlərində istifadəyə yararlı sayılan dərman vasitələri) hər zaman qadağan edilmiş hesab olunur.

Bu sinif BPC-157, 2,4-Dinitrophenol (DNP) və Troponin Aktivatorlar (məs. Reldesemtiv və Tirasemtiv) daxil olmaqla, lakin bunlarla məhdudlaşmayan bir çox fərqli maddələri əhatə edir.

## S1 ANABOLİK AGENTLƏR

**HƏR ZAMAN QADAĞAN EDİLMİŞDİR**
(YARIŞ MÜDDƏTİNDƏ VƏ YARIŞDAN KƏNAR MÜDDƏTDƏ)
Bu sinfə aid bütün maddələr
qeyri-*Xüsusi Maddələrə* aiddir.

Anabolik agentlər qadağan edilmişdirlər.

**S1.1. ANABOLİK ANDROGENİK STEROİDLƏR (AAS)**

Ekzogen qəbul olunduqda, aşağıdakılar daxil olmaqla, lakin onlarla məhdudlaşmayan:

- 1-Androstenediol (5α-androst-1-ene-3β, * Androstenedione (androst-4-ene-3,17-dione) 17B-diol)
- 1-Androstenedione (5α-androst-1-ene-3, 17-dione)
- 1-Androsterone (3α-hydroxy-5a-androst-1- ene-17-one)
- 1-Epiandrosterone (3β-hydroxy-5α- androst-1-ene-17-one)
- 1-Testosterone (17B-hydroxy-5α- androst-1-en-3-one)
- 4-Androstenediol (androst-4-ene-3β, 17B-diol)
- 4-Hydroxytestosterone (4,17β-dihydroxyandrost-4-en-3-one)
- 5-Androstenedione (androst-5-ene-3,17-dione)
- 7a-Hydroxy-DHEA
- 7B-Hydroxy-DHEA
- 7-Keto-DHEA
- 11B-Methyl-19-nortestosterone
- 17α-Methylepithiostanol (epistane)
- 19-Norandrostenediol (estr-4-ene-3,17-diol)
- 19-Norandrostenedione (estr-4-ene-3,17- dione)
- Androst-4-ene-3,11,17- trione (11-ketoandrostenedione, adrenosterone)
- Androstanolone (5α-dihydrotestosterone, 17β-hydroxy-5α-androstan-3-one)
- Androstenediol (androst-5-ene-3β,17β-diol)
- Bolasterone
- Boldenone
- Boldione (androsta-1,4-diene-3,17-dione)
- Calusterone
- Clostebol
- Danazol ([1,2]oxazolo[4',5':2,3]pregna-4-en-20-yn-17α-ol)
- Dehydrochlormethyltestosterone (4-chloro-17β-hydroxy-17α-methylandrosta-1,4-dien3- one)
- Desoxymethyltestosterone (17α-methyl-5α- androst-2-en-17β-ol and 17α-methyl-5α- androst-3-en-17β-ol)
- Dimethandrolone (7α,11β-Dimethyl-19- nortestosterone)
- Drostanolone
- Epiandrosterone (3β-hydroxy- 5α-androstan-17-one)
- Epi-dihydrotestosterone (17β-hydroxy-5β androstan-3-one)
- Epitestosterone
- Ethylestrenol (19-norpregna-4-en-17α-ol)
- Fluoxymesterone
- Formebolone
- Furazabol (17α-methyl [1,2,5] oxadiazolo[3',4':2,3]-5α-androstan-17β-ol)
- Gestrinone
- Mestanolone
- Mesterolone
- Metandienone (17β-hydroxy-17α methylandrosta-1,4-dien-3-one)
- Metenolone
- Methandriol
- Methasterone (17β-hydroxy-2α, 17α-dimethyl-5α-androstan-3-one)
- Methyl-1-testosterone (17β-hydroxy- 17α-methyl-5α-androst-1-en-3 one)
- Methylclostebol
- Methyldienolone (17β-hydroxy-17α- methylestra-4,9-dien-3-one)
- Methylnortestosterone (17β-hydroxy- 17α-methylestr-4-en-3-one)
- Methyltestosterone
- Metribolone (methyltrienolone, 17β-hydroxy-17α-methylestra-4,9,11- trien-3-one)
- Mibolerone
- Nandrolone (19-nortestosterone)
- Norboletone
- Norclostebol (4-chloro-
- 17β-ol-estr-4-en-3-one)
- Norethandrolone
- Oxabolone
- Oxandrolone
- Oxymesterone
- Oxymetholone
- Prasterone (dehydroepiandrosterone, DHEA, 3β-hydroxyandrost-5-en-17-one)
- Prostanozol (17β-[(tetrahydropyran-2-yl) oxy]-1'H-pyrazolo[3,4:2,3]-5α-androstane)
- Quinbolone
- Stanozolol
- Stenbolone
- Testosterone
- Tetrahydrogestrinone (17-hydroxy-18α-homo-19-nor- 17α-pregna-4,9,11-trien-3- one)
- Tibolone
- Trenbolone (17β-hydroxyestr-4,9,11-trien-3-one)
- Trestolone (7α-Methyl-19-nortestosterone, MENT)

həmçinin oxşar kimyəvi tərkibə və ya bioloji təsirə /lərə) malik digər maddələr də daxil olmaqla.

**S1.2. DİGƏR ANABOLİK AGENTLƏR**

Aşağıdakılar daxil olmaqla, lakin onlarla məhdudlaşmayan:

Clenbuterol, osilodrostat, ractopamine, selektiv androgen reseptor modulyatorları [SARMlar, məsələn andarine, enobosarm (ostarine), LGD-4033 (ligandrol), RAD140, S-23 və YK-11], zeranol və zilpaterol.

## S2 PEPTİD HORMONLARI, BÖYÜMƏ FAKTORLARI, ONLARA OXŞAR MADDƏLƏR VƏ MİMETİKLƏR

**HƏR ZAMAN QADAĞAN EDİLMİŞDİR**
(YARIŞ MÜDDƏTİNDƏ VƏ YARIŞDAN KƏNAR MÜDDƏTDƏ)
Bu sinfə aid bütün qadağan edilmiş maddələr qeyri-*Xüsusi Maddələrə* aiddir.

Aşağıdakı maddələr və oxşar kimyəvi struktura ya da bioloji xüsusiyyətlərə malik olan digər maddələr qadağan edilmişdir:

**S2.1. ERİTROPOETİNLƏR (EPO) VƏ ERİTROPOEZƏ TƏSİR EDƏN AGENTLƏR**

Aşağıdakılar daxil olmaqla, lakin onlarla məhdudlaşmayan:

**S2.1.1** Eritropoetin-Reseptor aqonistləri, məs: darbepoetinlər (dEPO); eritropoetinlər (EPO); EPO əsaslı birləşmələr [məs. EPO-Fc; methoxy polyethylene glycol-epoetin beta (CERA)]; EPO-mimetik agentlər və onların maddələri (məs.: CNTO-530, peginesatide).
**S2.1.2** Hipoksiya ilə induksiya olunan faktorun (HIF) aktivasiya agentləri, məs.: cobalt; daprodustat (GSK1278863); IOX2; molidustat (BAY 85-3934); roxadustat (FG-4592); vadadustat (AKB-6548); xenon.
**S2.1.3** GATA inhibitorları, məs. K-11706.
**S2.1.4** Transformasiyaedici böyümə faktoru-beta (TGF- β) siqnal inhibitorları, məs.: luspatercept; sotatercept.
**S2.1.5** Təbii bərpaedici reseptor aqonistləri, məs.: asialo EPO; karbamilatmış EPO (CEPO).

**S2.2. PEPTİD HORMONLAR VƏ ONLARIN İFRAZATINI STİMULLAŞDIRAN FAKTORLAR**

**S2.2.1** Kişilərdə testesteron-stimullaşdırıcı peptidlər, o cümlədən lakin bununla məhdudlaşmayan:

- xorionik qonadotropin (XQ),
- lüteinləşdiriçi hormon (LH),
- qonadotropin relizinq hormonu (GnRH, gonadorelin) və onun aqonist analoqları (e.g. buserelin, deslorelin, goserelin, histrelin, leuprorelin, nafarelin və triptorelin),
- kisspeptin və onun aqonist analoqları

**S2.2.2** Kortikotropinlər (Corticotrophins) və onların ifrazının stimullaşdıran (releasing) faktorlar, məs. corticorelin və tetracosactide

**S2.2.3** Böyümə Hormonu (BH) (Growth hormone (GH)) analoqları və onun fraqmentləri, lakin

- böyümə hormonu analoqları, məs.: lonapegsomatropin, somapacitan və somatrogon
- böyümə hormonu fraqmetləri, məs: AOD-9604 və hGH 176-191

**S2.2.4** Böyümə hormonunun rilizinq (ifrazını stimullaşdıran) faktoru daxil olmaqla, lakin bununla məhdudlaşmayan:

- böyümə hormon-rilizinq hormonu (BHRH) (growth hormone-releasing hormone (GHRH)) və onun analoqları: (məs. CJC-1293, CJC-1295, sermorelin və tesamorelin).
- böyümə hormonunun sekretaqoqları (BHS) (Growth hormone secretagogues (GHS)), və onun mimetikəri [məs.: anamorelin, capromorelin, ibutamoren (MK-677), ipamorelin, lenomorelin (ghrelin), macimorelin və tabimorelin]
- GH -releasing peptidləri (GHRPs) [məs.: alexamorelin, GHRP-1, GHRP-2 (pralmorelin), GHRP-3, GHRP-4, GHRP-5, GHRP-6 və examorelin (hexarelin)].

**S2.3. BÖYÜMƏ FAKTORU VƏ BÖYÜMƏ FAKTORUN MODULYATORLARI**

O cümlədən lakin bununla məhdudlaşmayan:

- Fibroblast böyümə faktorları (FGFs);
- Hepatosit böyümə faktoru (HGF);
- Insulinə bənzər böyümə faktoru-1 (IGF-1, mecasermin) və onun analoqları;
- Mexaniki böyümə faktorları (MGF);
- "Platelet-derived growth factor" (Trombositlərdə ifraz olunan böyümə faktoru) (PDGF);
- Thymosin- B4 və onun törəmələri, məs. TB-500;
- "Vascular-endothelial growth factor" (Damar-endotelial böyümə faktoru) (VEGF);

Həmçinin əzələ, vətər və ya bağların protein sintezi/parçalanması, vaskulyarizasiyası, enerji sərfiyyatı, reqenerativ potensialı və ya toxuma növlərinin dəyişməsinə təsir edən digər böyümə faktorları və ya böyümə faktorunun modulyatorları.

## S3 BETA - 2 AQONİSTLƏR

**HƏR ZAMAN QADAĞAN EDİLMİŞDİR**
(YARIŞ MÜDDƏTİNDƏ VƏ YARIŞDAN KƏNAR MÜDDƏTDƏ)
Bu sinfə aid bütün maddələr
*Xüsusi Maddələrə* aiddir.

Bütün selektiv və qeyri-selektiv beta-2 aqonistlər, o cümlədən bütün optik izomerlər qadağan edilmişdir.

Aşağıdakılar daxil olmaqla, lakin onlarla məhdudlaşmayan:

- Arformoterol
- Fenoterol
- Indacaterol
- Levosalbutamol
- Reproterol
- Salbutamol
- Formoterol
- Olodaterol
- Salmeterol
- Higenamine
- Procaterol
- Terbutaline
- Tretoquinol (trimetoquinol)
- Tulobuterol
- Vilanterol

**İSTİSNALAR**

- İnhalyasiya üçün salbutamol: İstənilən dozadan başlayaraq bölünmüş dozalarla qəbul olunduğu saatdan 8 saat ərzində maksimal 600 mikroqramı keçməmək şərtilə 24 saat ərzində maksimal 1600 mikroqram;
- İnhalyasiya üçün formoterol: maksimal çatdırılan doza 24 saat ərzində 54 mikroqramdır;
- İnhalyasiya üçün salmeterol: 24 saat ərzində maksimum 200 mikroqramdır.
- İnhalyasiya üçün vilanterol: 24 saat ərzində maksimum 25 mikroqramdır.

**QEYD**

Sidikdə aşkar edilmiş salbutamolun 1000 ng/mL-dən, formoterolun isə 40 ng/mL-dən artıq miqdarının mövcudluğu terapevtik istifadə üçün uyğun deyil və İdmançı tərəfindən nəzarət altında keçirilən farmakokinetik tədqiqat zamanı həmin qeyri-normal nəticənin dərman vasitəsinin yuxarıda göstərilən qaydalara əsasən terapevtik dozadan maksimal dozaya qədər (inhalyasiya vasitəsilə) qəbul edilməsi nəticəsində baş verməsini sübut edə bilmədiyi halda, *Qeyri-əlverişli Analiz Nəticəsi* kimi qiymətləndiriləcək.

## S4 HORMON VƏ METABOLİK MODULYATORLAR

**HƏR ZAMAN QADAĞAN EDİLMİŞDİR**
(YARIŞ MÜDDƏTİNDƏ VƏ YARIŞDAN KƏNAR MÜDDƏTDƏ)
S4.1. və S4.2 sinfinə aid bütün maddələr *Xüsusi Maddələrə* aiddir. S4.3 və S4.4 sinfinə aid maddələr isə qeyri-*Xüsusi Maddələrə* aiddir.

Aşağıda göstərilən hormon və metabolik modulyatorlar qadağan edilmişdir.

**S4.1. AROMATAZA İNHİBİTORLARI**

O cümlədən lakin bununla məhdudlaşmayan:

- 2-Androstenol (5α-androst-2-en-17-ol)
- 2-Androstenone (5α-androst-2-en-17-one)
- 3-Androstenol (5α-androst-3-en-17-ol)
- 3-Androstenone (5α-androst-3-en-17-one)
- 4-Androstene-3,6,17 trione (6-oxo)
- Aminoglutethimide
- Anastrozole
- Androsta-1,4,6-triene-3,17-dione (androstatrienedione)
- Androsta-3,5-diene-7,17-dione (arimistane)
- Exemestane
- Formestane
- Letrozole
- Testolactone

**S4.2. ANTİ-ESTROGENİK MADDƏLƏR [ANTİ-ESTROGENLƏR VƏ SELEKTİV ESTROGEN RESEPTOR MODULATORLARI (SERMS)]**

O cümlədən lakin bununla məhdudlaşmayan:

- Bazedoxifene
- Clomifene
- Cyclofenil
- Fulvestrant
- Ospemifene
- Raloxifene
- Tamoxifen
- Toremifene

**S4.3. AKTİVİN RESEPTORLARININ IIB AKTİVASİYASININ QARŞISINI ALAN MADDƏLƏR**

O cümlədən lakin bununla məhdudlaşmayan:

- Aktivin A-neytrallaşdıran anticisimlər (Activin A-neutralizing antibodies);
- Aktivin reseptor IIB rəqibləri (Activin receptor IIB competitors) məs.:
  - Aktivinin tələ-reseptorları (Decoy activin receptors (məs. ACE-031)
- Anti-aktivin reseptor IIB anticisimləri (anti-activin receptor IIB antibodies) (məs. bimagrumab)
- Miostatin inhibitorları, məs.:
  - Miostatin ekspressiyasını azaldan və ya dayandıran maddələr (agents reducing or ablating myostatin expression);
  - Miostatinə birləşən proteinlər (Myostatin-binding proteins) (məs. follistatin, myostatin propeptide);
  - Miostatin- və ya prekursor- neytrallaşdıran anticisimlər (Myostatin- or precursor-neutralizing antibodies) (məs. apitegromab, domagrozumab, landogrozumab, stamulumab).

**S4.4. METABOLİK MODULYATORLAR**

**S4.4.1.** AMP-aktivasiyaedici protein kinazanın (AMPK) aktivatorları, məs.: AICAR, peroksisom proliferasiya-aktivasiyaedici reseptor delta (PPARδ) aqonistləri, məs.: 2-(2-methyl-4-((4-methyl-2-(4-(trifluoromethyl) phenyl)thiazol-5-yl)methylthio) phenoxy) asetik turşu (GW1516, GW501516) və Reverba aqonistlər, məs: SR9009, SR9011
**S4.4.2.** İnsulinlər və insulin-mimetikləri
**S4.4.3.** Meldonium
**S4.4.4.** Trimetazidine

## S5 DİURETİKLƏR VƏ GİZLƏDİCİ AGENTLƏR

**HƏR ZAMAN QADAĞAN EDİLMİŞDİR**
(YARIŞ MÜDDƏTİNDƏ VƏ YARIŞDAN KƏNAR MÜDDƏTDƏ)
Bu sinfə aid bütün maddələr
*Xüsusi Maddələrə* aiddir.

Bütün optik izomerlər daxil olmaqla, məs. d- və l- uyğun olduğu yerlərdə, bütün diuretiklər və gizlədici maddələr qadağandır.

Aşağıdakılar daxil olmaqla, lakin onlarla məhdudlaşmayan:

- Diuretiklər, məsələn:
  Acetazolamide; amiloride; bumetanide; canrenone; chlortalidone; etacrynic acid; furosemide; indapamide; metolazone; spironolactone; thiazides, məs. bendroflumethiazide, chlorothiazide və hydrochlorothiazide; torasemide; triamterene;
- Vaptanlar, məs. conivaptan, mozavaptan, tolvaptan;
- Venadaxili yeridilən plazma "ekspanderləri" (plazma həcmini artıran maddələr):
  Albumin, dextran, hydroxyethyl starch, mannitol;
- Desmopressin;
- Probenecid;

və oxşar kimyəvi quruluşa və ya bioloji təsir(lər)ə malik olan digər maddələr.

**İSTİSNALAR**

- Drospirenone; pamabrom; və karboanhidraza inhibitorları topikal oftalmoloji məqsədlərlə istifadəsi (məs.: dorzolamide, brinzolamide);
- Stomatoloji anesteziyada felipressinin yerli istifadəsi.

**QEYD**

*İdmançı Nümunəsində* hər zaman və ya *Yarış Müddətində,* müvafiq olaraq, minimal aşkarlanma həddinə malik növbəti maddələrin hər hansı miqdarının diuretiklər və ya gizlədici maddələrlə birlikdə aşkarlanması (karboanhidraza inhibitorlarının topikal oftalmoloji tətbiqi və ya felipressinin diş anesteziyasında yerli tətbiqi istisna olmaqla) *Qeyri-əlverişli Analiz Nəticəsi* kimi hesab ediləcək: formoterol, salbutamol, cathine, ephedrine, methylephedrine və pseudoephedrine. *İdmançının* diuretik ya gizlədici maddə üçün verilmiş *Terapevtik İstifadə üçün İstisna (TİI)* icazəsinə əlavə olaraq həmin maddə üçün də TİI icazəsi olduğu halda istisna hesab edilir.

## QADAĞAN EDİLMİŞ ÜSULLAR

**HƏR ZAMAN QADAĞAN EDİLMİŞDİR**
(YARIŞ MÜDDƏTİNDƏ VƏ YARIŞDAN KƏNAR MÜDDƏTDƏ)
Bu sinfə aid bütün qadağan edilmiş üsullar qeyri-Xüsusi Üsullara aiddirlər. Yalnız
M2.2. Üsulları *Xüsusi Üsullara* aiddirlər.

**M1. QAN VƏ QAN KOMPONENTLƏRİ İLƏ MANİPULYASİYALAR**

Aşağıdakılar qadağan edilir:

**M1.1.** *İdmançılar* tərəfindən plazma və ya plazma komponentlərin qeydiyyat olunmuş toplama mərkəzində həyata keçirilən plazmoferez vasitəsilə donorluğu istisna olmaqla, qan dövranı sisteminə istənilən miqdarda autoloji allogenik (homoloji) və ya heterogen qan, yaxud da istənilən mənşəli eritrosit məhsullarının *Tətbiq Edilməsi* və ya təkrar istifadəsi.
**M1.2.** Oksigenin mənimsənilməsini, nəql və ya çatdırılmasının süni şəkildə artırılması.
O cümlədən lakin bununla məhdudlaşmayan:
Perfluorokimyəvi maddələr; efaproxiral (RSR13); voxelotor və modifikasiya edilmiş hemoqlobin məhsulları, məs. hemoqlobin əsasında hazırlanmış qan əvəzediciləri və mikrokapsula şəklində olan hemoqlobin məhsulları, istisnanı inhalyasiya şəklində köməkçi oksigen istifadəsi təşkil edir.
**M1.3.** Qanın və qan komponentlərin fiziki və ya kimyəvi vasitələrlə damardaxili manipulasiyasının hər hansı forması

**M2. KİMYƏVİ VƏ FİZİKİ MANİPULYASİYALAR**

Aşağıdakılar qadağan edilir:

**M2.1.** *Dopinq Nəzarəti* zamanı toplanan Nümunələrin famlığı və qorunmasına təsir edə biləcək istənilən *Saxtalaşdırma və Saxtalaşdırma Cəhdləri.*
O cümlədən lakin bununla məhdudlaşmayan:
*Nümunənin* əvəzedilməsi və/ya saxtalaşdırılması, məs., *Nümunəyə* proteazaların əlavə edilməsi.
**M2.2.** 12 saat ərzində 100 mL-dən çox venadaxili infuziyalar və/ya inyeksiyalar, istisnanı xəstəxanadaxili müalicə, cərrahi proseduralar və ya kliniki diaqnostik tədqiqatlar zamanı tətbiq olunan təşkil edir.

**M3. GEN VƏ HÜCEYRƏ DOPİNQİ**

İdman göstəricilərini artırma imkanına malik olan aşağıdakılar qadağan edilir:

**M3.1.** Genom sıralanmasını dəyişən və/ya hər hansı bir mexanizmlə gen ekspressiyası (genetik sintez) dəyişən nuklein turşusu və ya nuklein turşuları analoqlarının istifadəsi. Qeyd edilənlər daxil olmaqla, lakin onlarla məhdudlaşmayan gen dəyişdirilməsi, gen susdurulması və gen transfer texnologiyalarıdır.
**M3.2.** Normal və ya genetik modifikasiya edilmiş hüceyrələrin istifadəsi.

*Ardı 11-ci səh.*

# 2024 QADAĞAN EDİLMİŞ SİYAHI
# ÜMUMDÜNYA ANTİDOPİNQ MƏCƏLLƏSİ
## 1 YANVAR 2024-CÜ İLDƏN ETİBARƏN QÜVVƏYƏ MİNİR

*Əvvəli 10-cu səh.*

### S6 STİMULLAŞDIRICILAR

YARIŞ MÜDDƏTİNDƏ QADAĞAN EDİLMİŞDİR
Bu sinfə aid bütün qadağan edilmiş maddələr *Xüsusi Maddələrə* aiddir. Yalnız S6.A qrupu maddələri qeyri-*Xüsusi Maddələrə aiddir.*

Bu bölmədəki *Asılılıq Yaradan Maddələr:* cocaine və methylenedioxymethamphetamine (MDMA/ekstazi)

Bütün stimullaşdırıcılar, o cümlədən bütün optik izomerlər, yəni müvafiq olaraq d- və l-, qadağan edilir.

Stimullaşdırıcılara aiddir:

**S6.A: QEYRİ-XÜSUSİ STİMULLAŞDIRICILAR**

- Adrafinil
- Amfepramone
- Amfetamine
- Amfetaminil
- Amiphenazole
- Benfluorex
- Benzylpiperazine
- Bromantan
- Clobenzorex
- Cocaine
- Cropropamide
- Crotetamide
- Fencamine
- Fenetylline
- Fenfluramine
- Fenproporex
- Fonturacetam [4-phenylpiracetam (carphedon)]
- Furfenorex
- Lisdexamfetamine
- Mefenorex
- Mephentermine
- Mesocarb
- Metamfetamine(d-)
- p-methylamfetamine
- Modafinil
- Norfenfluramine
- Phendimetrazine
- Phentermine
- Prenylamine
- Prolintane

Bu bölmədə açıq şəkildə qeyd edilməyən stimullaşdırıcılar *Xüsusi Maddələrə* aiddir

**S6.B: XÜSUSİ STİMULLAŞDIRICILAR**

Aşağıdakılar daxil olmaqla, lakin bunlarla məhdudlaşmayan:

- 2-phenylpropan-1-amine (β-methylphenylethyl- amine, BMPEA)
- 3-Methylhexan-2-amine (1,2-dimethylpentylamine)
- 4-Fluoromethylphenidate
- 4-Methylhexan-2-amine (1,3-dimethylamylamine, 1,3 DMAA, methylhexanea-mine)
- 4-Methylpentan-2-amine (1,3-dimethylbutylamine)
- 5-Methylhexan-2-amine (1,4-dimethylamylamine, 1,4-dimethylpentylamine, 1,4-DMAA)
- Benzfetamine
- Cathine**
- Cathinone və onun analoqları məs. mephedrone, methedrone, and α - pyrrolidinovalerophenone
- Dimetamfetamine (dimethylamphetamine)
- Ephedrine***
- Epinephrine**** (adrenaline)
- Etamivan
- Ethylphenidate
- Etilamfetamine
- Etilefrine
- Famprofazone
- Fenbutrazate
- Fencamfamin
- Heptaminol
- Hydrafinil (fluorenol)
- Hydroxyamfetamine (parahydroxyamphetamine)
- Isometheptene
- Levmetamfetamine
- Meclofenoxate
- Methylenedioxymetham- phetamine
- Methylephedrine***
- Methylnaphthidate [(±)-methyl-2-(naphthalen-2-yl)-2-(piperidin-2-yl)acetate]
- Methylphenidate
- Nikethamide
- Norfenefrine
- Octodrine (1,5-dimethyl- hexylamine)
- Octopamine
- Oxilofrine (methylsynephrine)
- Pemoline
- Pentetrazol
- Phenethylamine və onun törəmələri
- Phenmetrazine
- Phenpromethamine
- Propylhexedrine
- Pseudoephedrine*****
- Selegiline
- Sibutramine
- Solriamfetol
- Strychnine
- Tenamfetamine (methylenedioxyamphet- amine)
- Tuaminoheptane

Həmçinin oxşar kimyəvi tərkibə və oxşar bioloji təsirə (-lərə) malik digər maddələr.

**İSTİSNALAR**

- Clonidine;
- Dermatoloji, nazal, oftalmoloji və ya otik istifadə üçün tətbiq olunan İmidazole törəmələri (məs. brimonidine, clonazoline, fenoxazoline, indanazoline, naphazoline, oxymetazoline, tetryzoline, tramazoline, xylometazoline) və 2024-cü ilin Monitorinq Proqramına daxil edilən digər stimullaşdırıcılar *.

### S7 NARKOTİKLƏR

**YARIS MÜDDƏTİNDƏ QADAĞAN EDİLMİŞDİR**
Bu sinfə aid bütün qadağan edilmiş maddələr *Xüsusi Maddələrə* aiddir.
Bu bölmədəki *Asılılıq Yaradan maddələr:* diamorphine (heroin)

Bütün qeyd edilmiş narkotiklər, onların optik izomerləri daxil olmaqla, məs., d- və l- optik izomerləri müvafiq olduğu halda, qadağandır:

- Buprenorphine
- Dextromoramide
- Diamorphine (heroin)
- Fentanyl və onun törəmələri
- Hydromorphone
- Methadone
- Morphine
- Nicomorphine
- Oxycodone
- Oxymorphone
- Pentazocine
- Pethidine
- Tramadol

### S8 KANNABİNOİDLƏR

**YARIŞ MÜDDƏTİNDƏ QADAĞAN EDİLMİŞDİR**
Bu sinfə aid bütün qadağan edilmiş maddələr *Xüsusi Maddələrə* aiddir.
Bu bölmədəki *Asılılıq Yaradan Maddələr:* Tetrahydrocannabinol (THC).

Bütün təbii və sintetik kannabinoidlər qadağan edilmişdir, məs.:

- Kannabis (həşiş və marixuana) və kannabis məhsulları
- Təbii və sintetik tetrahidrokannabinollar (THCs)
- THC təsirini təqlid edən sintetik kannabinoidlər

**İSTİSNALAR**

- Cannabidiol.

### S9 QLÜKOKORTİKOİDLƏR

**YARIS MÜDDƏTİNDƏ QADAĞAN EDİLMİŞDİR**
Bu sinfə aid bütün qadağan edilmiş maddələr *Xüsusi Maddələrə* aiddir.

Bütün qlükokortikloidlər venadaxili, əzələdaxili, oral [oromukozal daxil olmaqla, (məs: bukkal, qinqival, sublinqval)] və ya rektal təyin olunduğu halda qadağan edilmiş hesab edilir.

O cümlədən lakin bununla məhdudlaşmayan:
- Beclometasone
- Betamethasone
- Budesonide
- Ciclesonide
- Cortisone
- Deflazacort
- Dexamethasone
- Flunisolide
- Flucortolone
- Fluticasone
- Hydrocortisone
- Methylprednisolone
- Mometasone
- Prednisolone
- Prednisone
- Triamcinolone acetonide

**QEYD**

- İstehsalçı tərəfindən təsdiqlənmiş lisenziyalı dozalarda və terapevtik göstərişlər daxilində istifadə edildiyi hallarda digər istifadə üsulları (inhalyasiya və topikal daxil olmaqla: diş-intrakanal, dermal, nazal, oftalmoloji, otik və perianal) qadağan edilmir.

### P1 BETA BLOKATORLAR

**BƏZİ İDMAN NÖVLƏRİNDƏ QADAĞAN EDİLMİŞDİR**
Bu sinfə aid bütün qadağan edilmiş maddələr *Xüsusi Maddələrə* aiddir.

Beta-blokatorlar aşağıda qeyd edilən idman növlərində yalnız *Yarış Müddətində* qadağan edilmişdir, (*) işarə edilənlər isə həm də Y*arışdan Kənar Müddətdə* də qadağan edilmişdir.

- Oxatma (WA)*
- Avtomobil (FİA)
- Bilyard (bütün növləri) (WCBS)
- Darts (WDF)
- Qolf (İGF)
- Mini qolf (WMF)
- Atıcılıq (ISSF, IPC)*
- Xizəksürmə / Snoubordinq (Beynəlxalq Xizəksürmə İdmanı Federasiyası, FIS) növləri arasında xizəklə tramplindən tullanma, fristayl akrobatikası / half-payp, snoubordinq half-payp / biq eyr)
- Sualtı idman növləri (CMAS)*, fridayvinq, sualtı ovçuluq və sualtı atıcılığın bütün yarımnövləri.

*Bu idman növlərində həm də *Yarışdan Kənar Müddətdə* də qadağan edilmişdir

O cümlədən lakin bununla məhdudlaşmayan:

- Acebutolol
- Alprenolol
- Atenolol
- Betaxolol
- Bisoprolol
- Bunolol
- Carteolol
- Carvedilol
- Celiprolol
- Esmolol
- Labetalol
- Metipranolol
- Metoprolol
- Nadolol
- Nebivolol
- Oxprenolol
- Pindolol
- Propranolol
- Sotalol
- Timolol

* Bupropion, caffeine, nicotine, phenylephrine, phenylpropanolamine, pipradrol va synephrine: Həmin maddələr 2024-ci ilin Monitorinq Proqramına daxil edilib va Qadağan Edilmiş Maddə sayılmır.
** Cathine (d-norpseudoephedrine) və onun l-izomeri: Onun konsentrasiyası sidikdə 5 mkgr/ml-dan artıq olduğu halda qadağan edilmişdir.
*** Ephedrine va methylephedrine: Hər birinin sidikdə konsentrasiyası 10mkgr/ml-dan artıq olduğu halda qadağan edilmişdir.
**** Epinephrine (adrenaline): Yerli istifadə zamanı, məs. nazal, oftalmoloji, yaxud da digər yerli anestezioloji dərmanlarla birlikdə istifadə edildikdə qadağan edilmir.
***** Pseudoephedrine: Onun sidikdə konsentrasiyası 150 mkgr/ml-dan artıq olduğu halda qadağan edilmişdir.

---

*Keçmiş məcburi köçkün:*
## "Zabuxa qayıtdığım üçün həm sevincli, həm də həyəcanlıyam"



**"Biz 1992-ci ildə Laçından məcburi köçkün düşdük. Bakıya gəldikdən sonra isə Hövsan qəsəbəsində məskunlaşmışdıq. Şükürlər olsun ki, bu gün Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, öz yurdumuza qayıdırıq".**

Bu sözləri AZƏRTAC-a müsahibəsində doğma yurduna qayıdan Zabux kənd sakini Çiçək Zülfüqarova söyləyib.

O, uzun illərdən sonra öz yurduna qayıtdığı üçün həm sevincli, həm də həyəcanlı olduğunu vurğulayıb.

Çiçək Zülfüqarova bildirib ki, Zabuxa oğlu və nəvələri ilə birlikdə qayıdır.

*Zabuxa köçən sakin:*
## "Laçının mənzərəli yerləri, bulaqları üçün darıxmışam"



**"Keşməkeşli günlərimizin bir daha qayıtmamasını arzu edirik. Bu gün isə hamımız doğma yurdumuza qayıtdığımız üçün sevincliyik. Torpaqlarımızı işğaldan azad edən Azərbaycan Orduşuna minnətdarlığımı bildirirəm".**

AZƏRTAC xəbər verir ki, bu sözləri dekabrın 15-də doğma yurduna qayıdan Zabux kənd sakini Gilə Vəliyeva söyləyib.

O, Laçının mənzərəli yerləri, bulaqları üçün darıxdığını vurğulayaraq deyib: "Biz doğulub boya-başa çatdığımız yerlərdə həyatımızı yenidən quracağıq".

Gilə Vəliyeva məcbur köçkün kimi Abşeron rayonunda məskunlaşdıqlarını qeyd edib.

# Dünən Zabuxa köçən ailələrə evlərinin açarları təqdim olunub









Dünən Böyük qayıdış proqramı çərçivəsində Laçının Zabux kəndinə qayıdan ailələr yeni evlərinin açarlarını təhvil alıblar.

AZƏRTAC xəbər verir ki, köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. Belə ki, 36 nəfər olmaqla 9 ailə Bakıda, 10 nəfər olmaqla 3 ailə Sumqayıtda, 16 nəfər olmaqla 4 ailə Abşeronda, 4 nəfər olmaqla 1 ailə Mingəçevirdə, 20 nəfər olmaqla 6 ailə Bərdədə, 4 nəfər olmaqla 1 ailə Lənkəranda, 2 nəfər olmaqla 1 ailə isə Ağcabədidə məskunlaşmış keçmiş məcburi köçkün ailələrinin yurd həsrəti sona çatıb.

Açarların təqdim edilməsi mərasimində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, hüquq-mühafizə orqanlarının, kənd icra nümayəndəliyinin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə açarları təhvil alaraq evlərində məskunlaşıblar.

* * *

Bakı, Sumqayıt şəhərlərindən və bir neçə rayondan Laçına - doğma yurduna yollanan ailələr Zabux kəndinə çatıblar.

AZƏRTAC xəbər verir ki, Zabux kəndi bu gün 25 ailəyə qucaq açıb və daha 92 nəfərin yurd həsrəti bitib.

Onlar kəndə gələrkən böyük coşqu ilə qarşılanıblar, illərdir həsrətini çəkdikləri və Azərbaycan dövləti tərəfindən yenidən qurulan kəndin gözəl mənzərəsini seyr ediblər.

Daha da gözəlləşən və abadlaşan Zabuxa qovuşan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla anıblar.

Bununla da Zabux kəndində 146 ailə, yəni 568 nəfərin daimi məskunlaşması təmin edilib.

Zabux kənd sakinləri üçün doğma kəndlərində dövlətimizin başçısının göstərişi əsasında yenidən tikilən evlərdə bütün şərait yaradılıb.

# Füzuliyə köçürülən sakinlər ilk dəfə aktivlərlə təmin edilib



İşğaldan azad olunan ərazilərdə məskunlaşan sakinlərin məşğulluğunun təmin edilməsi istiqamətində genişmiqyaslı tədbirlər görülür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən bir qrup Füzuli şəhər sakini istehsal, xidmət sahəsi üzrə özünüməşğulluq proqramına cəlb edilərək lazımi avadanlıqlarla təmin olunub.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, vətəndaşlara öz müraciətləri əsasında qadın gözəllik salonu, kişi bərbəri və kiçik dərzi sexi zərfləri üzrə aktivlər təqdim edilib.

Bununla da Böyük qayıdış proqramı çərçivəsində öz yurdlarına qayıdan vətəndaşlar üçün yaradılan təsərrüfatların sayı 28-ə çatıb.

Ümumilikdə indiyədək Böyük qayıdış proqramı çərçivəsində 1000-dən artıq vətəndaş aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlar müvafiq vakansiyalar üzrə işlə təmin olunub, özünüməşğulluq proqramına və peşə hazırlığı kurslarına cəlb edilib.



# Magistrlərimiz İngiltərədə təhsil imkanı qazanıblar

## AzMİU ilə Vestminster Universiteti arasında ikili diplom müqaviləsi imzalanıb

Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) ilə İngiltərənin Vestminster Universiteti arasında Memarlıq abidələrinin bərpası və yenidən qurulması ixtisası üzrə magistr dərəcəsində ikili diplom müqaviləsi imzalanıb. Müqavilə AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədovanın Böyük Britaniyaya səfəri çərçivəsində bağlanıb.

Sənədə əsasən, magistrlər ikili diplom proqramına 2024-cü ilin sentyabr ayından etibarən qoşula biləcəklər. Proqramda iştirak etmək istəyən tələbələr I kursda qəbul olduğu universitetdə, II kursda isə tərəfdaş universitetdə təhsil alacaqlar.




Proqramı uğurla bitirərək məzun olanlar sonda hər iki universitetin diplomunu əldə edəcəklər.

Müqavilədə müəllim və tələbələrin akademik mübadilədə iştirakı, qarşılıqlı səfərlər, tələbələr üçün məlumatlandırma sessiyalarının təşkili və bu kimi məsələlər də nəzərdə tutulub. Bununla AzMİU-nun xarici universitetlərlə ikili diplom proqramlarının sayı 7-yə çatıb.

Qeyd edək ki, AzMİU bakalavr səviyyəsi üzrə Türkiyənin İstanbul Texnik Universiteti, İtaliyanın Milan Politexnik Universiteti, Fransanın CNAM Universiteti ilə, magistr səviyyəsi üzrə isə İspaniyanın Koruna Universiteti, İtaliyanın Milan Politexnik Universiteti və Portuqaliyanın Leiria Politexnik İnstitutu ilə ikili diplom proqramları həyata keçirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# İqtisadi subyektlərin rəhbərlərinin nəzərinə!

**Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin tələblərinə uyğun olaraq aşağıda göstərilən iqtisadi subyektlər 2023-cü il üzrə maliyyə hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:**

| Sıra №si | Məcburi audit subyektləri | Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası |
|---|---|---|
| 1. | İctimai əhəmiyyətli qurumlar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən |
| 2. | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4-cü maddəsində nəzərdə tutulan şərtlərlə 2019-cu il 03 may tarixli 1584-VQD |
| 3. | Səhmdar cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107.6-cı maddəsində nəzərdə tutulan şərtlərlə 2019-cu il 03 may tarixli 1584-VQD |
| 4. | Banklar və digər kredit təşkilatları | "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələrinə əsasən |
| 5. | Sığorta təşkilatları və cəmiyyətləri | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununun 74-cü və 93-cü maddələrinə əsasən. |
| 6. | İnvestisiya fondları | "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununun 26-cı və 48-ci maddələrinə əsasən. |
| 7. | Maliyyə-sənaye qrupları | "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli 69-IQ №-li Qanununun 16-cı və 17-ci maddələrinə əsasən |
| 8. | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.3-cü maddəsində nəzərdə tutulan şərtlərlə |
| 9. | Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.2-ci maddəsinə əsasən |
| 10. | Publik hüquqi şəxslər | "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ saylı Qanununun 12-1-ci və publik hüquqi şəxslərin nizamnamələrinə əsasən |
| 11. | Siyasi partiyalar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 14.6-cı maddəsinə əsasən |
| 12. | Kənd təsərrüfatı kooperativləri | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli № 270-VQ saylı Qanunun 5.4-cü maddəsinə əsasən |
| 13. | Bələdiyyələr | "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli № 772-IQ saylı Qanunun 13-cü maddəsinə əsasən |
| 14. | İnvestisiya şirkətləri, fond birjaları, klirinq təşkilatları və investisiya fondları | "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli № 1284-IVQ saylı Qanunun 61-ci maddəsinə əsasən |
| 15. | Nizamnamələrində (Əsasnamələrində) auditdən keçmələri ehtiva olunan qurumlar | Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman, sərəncamlarına və digər sənədlərə əsasən. |

- Audit yoxlaması məcburi və ya könüllü (təsərrüfat subyektlərinin öz təşəbbüsü ilə) ola bilər. Qanuna görə öz maliyyə hesabatlarını dərc etdirilməli olan təsərrüfat subyektləri üçün, habelə qanunla bilavasitə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan audit məcburi, digər hallarda isə könüllüdür.
- Müstəqil (kənar) audit ölkə iqtisadiyyatında maliyyə şəffaflığının təmin olunmasında, maliyyə vəsaitlərindən səmərəli və təyinatı üzrə xərclənməsində, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə, kölgə iqtisadiyyatının azaldılmasında əvəzsiz rola malikdir və auditorlar tərəfindən məcburi və ya könüllü auditlərin nəticələri üzrə verilən auditor hesabatının (auditor rəyinin) iqtisadi subyektlərin maliyyə hesabatlarında yol verilən nöqsan və çatışmazlıqların vaxtında aşkar edilməsində və aradan qaldırılmasında çox böyük əhəmiyyəti vardır;
- İqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Sərbəst auditorlar və auditor təşkilatları barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz (**www.audit.gov.az**);
- Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri dəstək göstərməyə hazırdır.

***Azərbaycan Respublikasının Auditorlar Palatası***

# Qərb Paşinyanı "ofsayd"a sala bilər

Hayastanda siyasi müstəvidə müşahidə edilən qütbləşmə getdikcə dərinləşməkdə, bu kontekstdə iqtidar və müxalifət arasında münasibətlər tam antoqonist xarakter almaqdadır. Tərəflərin bir-birilərinə qarşı gözdənsalma kampaniyasını genişləndirmələri vəziyyəti daha kritik həddə çatdırmaqdadır. Bütün bunların fonunda Moskva ilə İrəvan arasında vəziyyətin kəskinləşməsi açıq şəkildə müşahidə olunmaqdadır. Yəni artıq Hayastanda çox ciddi anti-Rusiya ab-havası hökm sürür.



İrəvan düşdüyü vəziyyətə görə bir çox xarici dövlətləri, o cümlədən də əsas müttəfiqi olan Rusiyanı ittiham edir. Elə buna görədir ki, bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atır.

Göründüyü qədərilə rəsmi İrəvan hərbi müttəfiqi Rusiyaya qarşı çıxaraq Qərbin verdiyi vədlərə güvənir. Hər halda, Paşinyan hakimiyyətinin nümayiş etdirdiyi xarici siyasətlə konkret seçim etdiyi görünür, Rusiyanın xeyrinə olmayan bu istiqamətdə israrlı davranmağa çalışır. Elə bunun nəticəsidir ki, Qərb Hayastandan növbədənkənar parlament seçkiləri keçirməyi tələb edir.

Hayastanda isə deyilir ki, erkən parlament seçkisi hazırkı baş nazir Nikol Paşinyan üçün sürpriz ola bilər. Siyasi strateq Karen Koçaryan növbədənkənar seçkinin Paşinyana Qərb məsləhətçiləri tərəfindən tövsiyə olunduğunu şərh edərkən deyib ki, parlament müxalifətini əvəzləmək cəhdində Nikol özünün dəyişdirilməsi faktı ilə üzləşə bilər. Qərb tamamilə fərqli bir namizədi - daha adekvat və daha az güzəştə gedən birini dəstəkləyə bilər: "Məsələn, onlar Ermənistan Təhlükəsizlik Şurasının hazırkı katibi Armen Qriqoryanı seçə bilərlər. Qriqoryan demək olar ki, bütün vacib görüşlərə ilk növbədə özü gedir. Xarici işlər naziri Ararat Mirzoyan daha çox protokol işlərinə cavabdeh olan rəislərə oxşayır. Digər bütün əsas fiqurlarla görüşlərə Qriqoryan gedir. Söhbət Qriqoryanın ilk növbədə görüşdüyü dövlət katiblərindən və xarici işlər nazirlərindən gedir. Bu, Paşinyanın Mirzoyana güvənməməsinin nəticəsi deyil, Qərbin kiminlə işləmək istədiyinin sübutudur".

Karen Koçaryan qeyd edib ki, hazırkı şərtlərdə Paşinyanı seçki yolu ilə hakimiyyətdən uzaqlaşdırmaq mümkün deyil. Çünki hakim qüvvə çox tez bir zamanda seçkini saxtalaşdırmaq üçün bütün mexanizmləri təkmilləşdirib. Növbədənkənar seçki İrəvan Ağsaqqallar Şurasına seçkidə olduğu kimi, parlament müxalifətinin dəyişməsinə, anti-Rusiya qüvvələrinin təsirinin artmasına səbəb ola bilər. Hayastanda anti-Rusiya əhvali-ruhiyyəsi bu gün tarixi maksimuma çatıb. Rusiyanın reytinqi Paşinyanın reytinqindən də sürətlə düşür. Bu, mübaliğə deyil, obyektiv reallıqdır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Boccia idman növü üzrə Azərbaycan çempionatının final mərhələsi keçirilib

Dekabrın 15-də ABU ARENA idman zalında Boccia idman növü üzrə 2023 SENİ CUP Azərbaycan çempionatının final mərhələsi keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Paralimpiya Komitəsinin prezidenti Hidayət Abdullayev, Azərbaycan Boccia Federasiyasının prezidenti Vüqar Behbudov, vitse-prezident və baş məşqçi İlham Məhərrəmov giriş sözləri ilə tədbiri açıq elan ediblər.

Azərbaycan Himninin sədaları altında start götürən final mərhələsi BC1, BC2, BC3, BC4, BC5 və uşaq kateqoriyası da daxil olmaqla 80 nəfər əlilliyi olan şəxs arasından finala çıxan paralimpiyaçılar arasında başlayıb. Musiqili qonağın ifasından sonra qaliblərin adları açıqlanıb. Qeyd edək ki, çempionat beynəlxalq boccia təşkilatı BISFED qaydalarına əsasən təşkil edilib.




# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət İqtisad Universitetinin (keçmiş Xalq Təsərrüfatı İnstitutu) Ümumiqtisad fakültəsinin 1984-cü il buraxılış 932-ci qrupun məzunları qrup yoldaşları Solmaz Məlikovaya qardaşı, Azərbaycan Respublikasının Xalq artisti

**RAMİZ MƏLİKİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Apellyasiya Məhkəməsinin rəhbərliyi və hakimləri Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini Çingiz Əsgərova əzizi

**ŞƏMSƏDDİN TARVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5270
Sifariş 3271

Qiyməti 40 qəpik